QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 015 (5487) 25 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dünya birliyi Azərbaycanı vacib və etibarlı tərəfdaş kimi tanıyır

*Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*



Səh 2

## XİN: "Ermənistan prezidenti AŞPA-dakı çıxışı ilə yenə də beynəlxalq ictimaiyyəti aldatmağa çalışdı"

Bax 6

Ermənistan-Azərbaycan münaqişəsinin həllində əsas ədalətsizlik və ya Ermənistan rəhbərliyinin dediyi kimi, "ədalətin defisiti", ilk növbədə, Azərbaycanın suveren ərazilərinin işğalı və işğal olunmuş ərazilərdə bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qalması və onların bütün fundamental hüquqlarının pozulmasıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistan prezidentinin Avropa Şurası Parlament Assambleyasında çıxışına münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri ...

## AŞPA-da çıxış edən Ermənistan prezidentinə Azərbaycan nümayəndə heyətinin rəhbərindən sərt cavab

Bax 3

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri, qurumun vitse-prezidenti Səməd Seyidov yanvarın 24-də Assambleyanın iclasında çıxış edən Ermənistan prezidenti Serj Sarkisyana sərt cavab verib. AZƏRTAC xəbər verir ki, Səməd Seyidov Ermənistan prezidentinin çıxışının yalanla dolu olduğunu, onun dünya ictimaiyyətini aldatdığını bildirib. Nümayəndə heyətimizin rəhbəri Ermənistan dövlətinin başçısına müraciətlə deyib...

## Telman Əliyev: "Naxçıvan Muxtar Respublikası investisiya baxımından da cazibədar məkandır"

Bax 5

Naxçıvan Muxtar Respublikasında infrastruktur yüksək səviyyədə qurulub, çəkilən yollar, tikilən binalar çox gözəldir. Naxçıvan investisiya baxımından da cazibədar məkandır. Burada bir sıra əhəmiyyətli sahələr üzrə müsbət təcrübə formalaşıb. Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyev deyib.Telman Əliyev bildirib ki, "Caspian European Club" dünyanın 70 ölkəsində ...

Davos Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiya keçirilib



3

Davosda "Ekspo 2025" Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı təqdimat mərasimi keçirilib



7

Azərbaycan reallıqlarının Davos Dünya İqtisadi Forumu kimi mötəbər tribunadan səsləndirilməsi müstəsna əhəmiyyətə malikdir



8

Azərbaycan ilə Ukrayna arasında sərhəd təhlükəsizliyinin təmin olunması məsələləri müzakirə edilib



5

Ali Baş Komandanın tapşırığı ilə cəbhə xəttində yerləşən hərbi hissələrdəki vəziyyət yoxlanılıb



3

Hikmət Babaoğlu: "Prezident öz cavabı ilə həqiqətləri dünyaya çatdırmış oldu"



9

10

"Azərbaycan Prezidentinin Davosda keçirdiyi görüşlər həm iqtisadi, həm də siyasi baxımdan mühüm önəm kəsb edir"



13

"Zeytun Budağı" əməliyyatı aprel döyüşlərinin təkrarlanması üçün presedent ola bilər



16

Azərbaycan millisinin UEFA Millətlər Liqasında rəqibləri müəyyənləşib



# Dünya birliyi Azərbaycanı vacib və etibarlı tərəfdaş kimi tanıyır

## *Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*

***Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Lazard Freres" şirkətinin sədri və baş icraçı direktoru Metyu Piqas ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Metyu Piqas "Lazard Freres" şirkətinin uzun illərdir Azərbaycanda uğurla fəaliyyət göstərdiyini bildirdi. O, gələcəkdə ölkəmizdə yeni biznes layihələrində iştirak edəcəklərinə ümidvar olduğunu vurğuladı.***

Prezident İlham Əliyev "Lazard Freres" şirkətinin ölkəmizdəki fəaliyyətini müsbət qiymətləndirdi və onun Azərbaycanda gələcək fəaliyyətinin də uğurlu olacağına əminliyini ifadə etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda ABŞ-ın "Blackstone" şirkətinin həmtəsisçisi və icraçı direktoru Stiven Şvarzman ilə görüşüb. Stiven Şvarzman bir müddət bundan əvvəl Azərbaycanda səfərdə olduğunu, ölkəmizin tarixi və müasir simasının onda dərin təəssürat yaratdığını bildirdi. O, "Blackstone" şirkətinin Azərbaycan Dövlət Neft Fondu ilə əməkdaşlığının uğurlu olduğunu vurğuladı.











Prezident İlham Əliyev "Blackstone" şirkətinin ölkəmizlə əməkdaşlığını müsbət qiymətləndirdi. Görüşdə gələcək əməkdaşlığa dair məsələlər müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda "IBM" şirkətinin baş icraçı direktoru xanım Cinni Rometti ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, xanım Cinni Rometti Azərbaycan ilə əməkdaşlığın uğurlu olduğunu, "IBM" şirkətinin Cənubi Qafqaz regionunda ilk dəfə Azərbaycanda birgə müəssisə yaratdığını vurğuladı. Bunun da ölkəmizin coğrafi mövqeyi, uğurlu inkişafı və innovasiyaya yüksək qiymət verməsi ilə bağlı olduğunu deyən Cinni Rometti bu müəssisənin yaradılması ilə Azərbaycanda insan kapitalının daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev "IBM" şirkətinin ölkəmizdəki fəaliyyətinin uğurlu olduğunu, mövcud əməkdaşlığın gələcək əlaqələrin inkişafına töhfə verəcəyini vurğuladı.

Qeyd edək ki, "IBM" şirkətinin Azərbaycana yatırdığı investisiya nəticəsində yüksək ixtisaslı kadrlardan ibarət yeni iş yerləri açılacaq, SOCAR-"IBM" əməkdaşlığı nəticəsində ən müasir texnologiyalardan istifadəyə geniş imkan yaradılacaq, SOCAR-ın əməkdaşları müasir texnologiyalardan istifadə edərək bilik və bacarıqlarını təkmilləşdirəcəklər. Layihə üzərində 1500-dək işçi çalışacaq ki, bu da dünya səviyyəli mütəxəssislərin hazırlanmasına rəvac verəcək. Layihədə Bakı Ali Neft Məktəbinin, o cümlədən Azərbaycanın digər universitetlərinin iştirakı da təmin olunacaq. Bu layihənin icrası nəticəsində ölkəmizin regionda innovasiyaların tətbiqi sahəsində nüfuzu daha da artacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 24-də Davosda ABŞ-ın "Carlyle Group" şirkətinin həmtəsisçisi və icraçı direktoru Devid Rubinşteyn ilə görüşü olub. Görüşdə Azərbaycan Dövlət Neft Fondu ilə "Carlyle Group" arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirildi, əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb. Görüşdə "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıldı, bu ilin fevralında Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti toplantısının keçiriləcəyi qeyd olundu. Söhbət zamanı TANAP və TAP kəmərlərinin maliyyələşdirilməsi, TANAP qaz kəmərinin bu il ərzində istismara verilməsi, "Şahdəniz-2" yatağından ilk qazın hasil olunması ilə bağlı məsələlər müzakirə edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsini nəzərdə tutan müqavilənin uzadılmasının əhəmiyyəti vurğulandı. Bu il "Şahdəniz-2" yatağından ilk qazın hasil olunacağı, TANAP kəmərinin istismara veriləcəyi bildirildi. Söhbət zamanı Azərbaycanda neft hasilatının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu. Prezident İlham Əliyev Robert Dadlini Bakıya səfərə dəvət etdi.

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə İsrailin Baş naziri Benyamin Netanyahunun Azərbaycana səfəri məmnunluqla xatırlandı, səfərin nəticələrinin Azərbaycan-İsrail əlaqələrinin inkişafına yeni təkan verdiyi qeyd olundu. Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif aspektləri müzakirə edildi, gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

# Davos Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiya keçirilib

*Prezident İlham Əliyev sessiyada iştirak edib*





Yanvarın 24-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiya keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib. Dövlət və hökumət başçıları ilə yanaşı, dünyanın aparıcı enerji şirkətlərinin rəhbərlərinin, mütəxəssislərin və alimlərin də qatıldığı sessiyada neft və qaz sənayesinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## AŞPA-da çıxış edən Ermənistan prezidentinə Azərbaycan nümayəndə heyətinin rəhbərindən sərt cavab

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri, qurumun vitse-prezidenti Səməd Seyidov yanvarın 24-də Assambleyanın iclasında çıxış edən Ermənistan prezidenti Serj Sarkisyana sərt cavab verib. AZƏRTAC xəbər verir ki, Səməd Seyidov Ermənistan prezidentinin çıxışının yalanla dolu olduğunu, onun dünya ictimaiyyətini aldatdığını bildirib. Nümayəndə heyətimizin rəhbəri Ermənistan dövlətinin başçısına müraciətlə deyib: "Siz Azərbaycana qarşı müharibənin lideri olmusunuz. Niyə çıxışınızda Xocalı faciəsindən danışmadınız? Xocalıda uşaqlar, yaşlı insanlar, qadınlar daxil olmaqla 600-dən çox insan ermənilər tərəfindən öldürülüb. Niyə etnik təmizləmə barədə danışmadınız? Siz hazırda beynəlxalq ictimaiyyəti aldatmağa çalışırsınız. Nə bu təşkilatın, nə də digər təşkilatların qətnamələrini yerinə yetirirsiniz. BMT, Avropa İttifaqı, Avropa Şurası, digər təşkilatlar Azərbaycan torpaqlarının işğal olunduğunu bəyan edib. Siz bu təşkilatlardan heç kəsi qəbul etməyə hazır deyilsiniz".



# Oqtay Əsədov: "Azərbaycan və Koreya arasında dostluq əlaqələri dərin köklərə malikdir"



Yanvarın 24-də Milli Məclisin sədri Oqtay Əsədov Koreya Milli Assambleyasının üzvü, Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Li Myonq Sunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Milli Məclisin sədri Oqtay Əsədov ölkələrimiz arasındakı dostluq əlaqələrinin tarixindən danışıb. Bildirib ki, Azərbaycan və Koreya arasında dostluq əlaqələri dərin köklərə malikdir. Münasibətlərimizin genişlənməsində dövlət başçılarının rolunu xüsusi vurğulayan sədr bu səfərlərin əlaqələrimizin inkişafına xüsusi töhfə verdiyini qeyd edib. O ümidvar olduğunu söyləyib ki, bu səfər də münasibətlərimizi dərinləşdirmək baxımından əhəmiyyətli olacaq. Oqtay Əsədov, həmçinin parlamentlərarası əlaqələrdən də söhbət açıb və bu əməkdaşlığı yüksək qiymətləndirib. Qonaqlara ölkəmizin təşəbbüsü ilə həyata keçirilən nəhəng beynəlxalq layihələr barədə də məlumat verilib.

Koreya Milli Assambleyasının üzvü, Koreya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Li Myonq Su Azərbaycanda müxtəlif sahələrin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirib. O deyib ki, müxtəlif sahələrdə qarşılıqlı təcrübə mübadiləsi ikitərəfli əməkdaşlığa töhfə verəcək. Görüşdə ölkələrimiz arasında münasibətlərin hazırkı vəziyyəti və onun daha da inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# Ali Baş Komandanın tapşırığı ilə cəbhə xəttində yerləşən hərbi hissələrdəki vəziyyət yoxlanılıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov və müdafiə naziri, general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı qoşunların döyüş hazırlığının vəziyyəti, şəxsi heyətin xidməti və sosial-məişət şəraiti yoxlanılıb, hərbi qulluqçularla söhbətlər aparılıb, birgə nahar təşkil edilib.





# Azərbaycanda söz və media azadlığı bütün demokratik dəyərlərə cavab verir

## *İlham Əliyev: "Əgər internet heç bir senzura olmadan azaddırsa və əhalinin böyük hissəsi internet istifadəçisidirsə, medianın fəaliyyətinə məhdudiyyətdən danışmaq olmaz"*

***Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində bir sıra önəmli görüşlər keçirməklə yanaşı, panel müzakirədə də iştirak edib. İqtisadi Forum çərçivəsində "Strateji perspektivlər: Avrasiya" adlı panel müzakirəsində çıxış edən ölkə başçımız, xüsusilə vurğulayıb ki, Azərbaycanda bütün əsas azadlıqlar , o cümlədən, söz və media azadlığı da tam şəkildə təmin olunmaqdadır. Belə ki, "Buraya media azadlığı da aiddir ki, Azərbaycanda media tamamilə azaddır"-deyə vurğulayan dövlət başçısı panel müzakirəsində onu da xatırladıb ki, ölkə əhalisinin təxminən 80 faizi internet istifadəçisidir. SİTAT: "Əgər internet heç bir senzura olmadan azaddırsa və əhalinin böyük hissəsi internet istifadəçisidirsə, medianın fəaliyyətinə məhdudiyyətdən danışmaq olmaz".***




Müzakirədə iştirak edən jurnalistlərin də suallarını cavablandıran Prezident İlham Əliyev media azadlığı ilə bağlı reytinqlərdə Azərbaycana niyə aşağı dərəcə verildiyinə dair sualı da cavablandırıb. Vurğulayıb ki, bu, siyasi səbəblərlə bağlıdır. Ölkə başçımız media təmsilçilərinin diqqətinə çatdırıb ki, Azərbaycan demokratik və müstəqil dövlət olmaqla yanaşı, öz milli maraqlarını da daim ən yüksək mövqedə saxlayır. Bu səbəbdən, bəzi Qərb siyasi qurumları bu kimi münbit reallığı qəbul etməkdə acizlik göstərir, o cümlədən, Azərbaycanın milli maraqlar çərçivəsində uğurlu siyasət yürütməsinə düşmən gözü ilə baxırlar. SİTAT: "Reallığı dəyişmək olmaz. Bir daha deyirəm ki, Azərbaycanda fundamental azadlıqlar təmin olunur. Bizim hökumətimiz hər bir kəndə genişzolaqlı internetin çatdırılması üçün bir çox vacib layihələr həyata keçirir. Bu qiymətləndirmə çox ədalətsiz yanaşma əsasında təşkil olunub. Bəzən isə, bu, düşmənçəsinə yanaşmadır. Bu reytinqlər Qərbdə bəzi siyasi mərkəzlər tərəfindən təşkil olunub. Bunlar nəyə görə edilir? Səbəb sadədir. Azərbaycan milli maraqlarına uyğun müstəqil siyasət həyata keçirir".




### "Bəziləri çox da böyük olmayan ölkə üçün Azərbaycanı çox müstəqil hesab edirlər"

O cümlədən, "Biz ölkəmizə problem törədəcək, riskli olan macəralara qatılmırıq"-deyə qeyd edən Prezident İlham Əliyev, həmçinin, bildirib ki, Azərbaycanda daxili risklər yoxdur, siyasi və iqtisadi stabillik var: "Bizim üzləşə biləcəyimiz istənilən risk xaricdən gələ bilər. Azərbaycanı bəzi ölkələrə qarşı kampaniyalara cəlb etməklə bağlı bir sıra cəhdlər olub. Lakin biz heç kəsə qarşı oynamırıq, riskli və milli maraqlarımıza zidd olan kampaniyalara qatılmırıq. Buna görə də, bəziləri çox da böyük olmayan ölkə üçün Azərbaycanı çox müstəqil hesab edirlər. Bu kimi reytinqlər bizim nüfuzumuzu hörmətdən salmağa hədəflənib. Azərbaycanı qeyri-demokrat ölkə kimi göstərmək istəyiblər. Lakin bu, belə deyil. Siyasi inkişaf iqtisadi inkişafla bağlıdır. Dünya iqtisadi forumunun açıqlamasına görə, Azərbaycan iqtisadi rəqabətliliyə görə 35-ci yerdə qərarlaşıb. Bu, yaxşı göstəricidir və bir daha nümayiş etdirir ki, bizim ölkə azaddır".

### AŞPA-nın baş katibi Torboyrn Yaqland da hüquqi islahatları yüksək qiymətləndirib və reallıqları etiraf edib!

Onu da xatırlatmaq yerinə düşərdi ki, bu günlərdə Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında çıxış edən baş katib Torbyorn Yaqland Azərbaycanda son dövrdə aparılmış hüquqi islahatları yüksək qiymətləndirib, onların əhəmiyyətli irəliləyiş olduğunu vurğulayıb. Bu fakt isə, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, ümumiyyətlə, Azərbaycanda aparılan hər bir islahat, nəticədə, öz uğurlu təsdiqini tapmaqdadır. Azərbaycan azad, müstəqil və demokratik ölkə olmaqla yanaşı, eyni zamanda, bütün dünyaya və beynəlxalq aləmə sübut edir ki, milli maraqlar çərçivəsində inkişaf və tərəqqi faktorunu da, məhz ölkəmiz təqdim etməkdədir. Əgər belə olmasa idi, bir sıra aparıcı qurumlar da bunu etiraf etməzdilər. Bu baxımdan, hətta zamanında ölkəmizə qarşı müəyyən çıxışlar etmiş tərəflər və siyasi qurumlar da, son, anda bu uğur reallığını qəbul etməli olurlar.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan ilə Ukrayna arasında sərhəd təhlükəsizliyinin təmin olunması məsələləri müzakirə edilib





***Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin başçılıq etdiyi nümayəndə heyəti Ukraynanın Dövlət Sərhəd Mühafizə Xidmətinin rəisi, general-leytenant Petro Siqikalın dəvəti ilə yanvarın 22-24-də Ukraynada səfərdə olub. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycanın və Ukraynanın dövlət sərhədlərində mövcud əməliyyat şəraiti və onun inkişaf meyilləri, sərhəd təhlükəsizliyinin təmin edilməsi, dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili üzrə həyata keçirilən fəaliyyətlər barədə fikir mübadiləsi aparılıb.***

Görüşdə ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan tərəflər sərhəd qurumları arasında transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizə, sərhəd nəzarətinin təşkili, riskin təhlili və qarşılıqlı maraq kəsb edən digər istiqamətlər üzrə təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın inkişaf etdirilməsinə dair müzakirələr aparıblar. Səfər zamanı Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə Ukraynanın Dövlət Sərhəd Mühafizə Xidmətinin nümayəndə heyətlərinin işçi görüşünün Protokolu imzalanıb.

Azərbaycan nümayəndə heyəti Ukraynanın Dövlət Sərhəd Mühafizə Xidmətinin aidiyyəti strukturları, o cümlədən şəxsi heyətin hazırlanması, xidməti fəaliyyətin idarəedilməsi mərkəzləri və digər bölmələrinin fəaliyyəti, mövcud maddi-texniki imkanları ilə tanış olub.

## Azərbaycandakı fərdi sahibkarların sayı 795 minə çatıb

Bu il yanvarın 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 795 minə çatıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, hesabat dövründə hər altı fərdi sahibkardan beşi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi" və "Nəqliyyat və anbar təsərrüfatı" sahələri üzrə qeydiyyatdan keçib.



Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (29,6 faiz), Aran (20,9 faiz), Gəncə-Qazax (14 faiz) və Lənkəran (10,1 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,5 faizini kişilər, 21,5 faizi qadınlar olub. Qadınlar "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 27 faizini, "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət sahəsində 25,8 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,7 faizini təşkil edir. Sahibkar qadınların 31,4 faizi Bakıda, 17,8 faizi Aran, 17,1 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (22,8 faiz), Gəncə-Qazax (26,1 faiz) və Lənkəran (22,6 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# Telman Əliyev: "Naxçıvan Muxtar Respublikası investisiya baxımından da cazibədar məkandır"

Naxçıvan Muxtar Respublikasında infrastruktur yüksək səviyyədə qurulub, çəkilən yollar, tikilən binalar çox gözəldir. Naxçıvan investisiya baxımından da cazibədar məkandır. Burada bir sıra əhəmiyyətli sahələr üzrə müsbət təcrübə formalaşıb.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyev deyib.

Telman Əliyev bildirib ki, "Caspian European Club" dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. "Caspian European Club"un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. 2017-ci il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilir. Xüsusilə muxtar respublikada alternativ və bərpa olan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması, yüksək standartlara uyğun yeyinti məhsullarının istehsal edilməsi, müasir turizm infrastrukturu, biznes və investisiya mühiti üçün yaradılan şərait ekspertlər tərəfindən düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirilib. Təsəvvür edin ki, inkişafına görə seçilən Avropa qitəsində belə, 60 faiz alternativ və bərpaolunan enerjidən istifadə edən ölkə yoxdur. Buna görə də



Naxçıvan liderdir. Məhz bütün bunlara görə və ümumilikdə, ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırlanan investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxıb.

"Yanvarın 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirildi. Həmin tədbirin məhz Heydər Əliyev Muzeyində keçirilməsi özlüyündə əhəmiyyətli hadisədir. Çünki muxtar respublikanın, bütövlükdə ölkəmizin inkişafı Ulu Öndərimiz adı ilə, onun siyasi xəttinin uğurla davam etdirilməsi ilə bağlıdır", - deyən "Caspian European Club"un sədrinin birinci müavini qeyd edib ki, muxtar respublikada görülən işlər, həyata keçirilən əhəmiyyətli tədbirlər bundan sonra da Naxçıvanın nümunəvi bir məkan olacağına zəmanət verir.

# Bakı məktəblərinə işə qəbul imtahanı nə vaxt keçiriləcək?

Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən ümumi təhsil müəssisələrində Gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər, uşaq birliyi təşkilatı rəhbəri və laborant vəzifələrinə, o cümlədən BŞTİ-nin nəzdində fəaliyyət göstərən Təlimə Dəstək Mərkəzinə (TDM) işə qəbul üzrə elan edilmiş müsabiqələrin test imtahanı mərhələsinin vaxtı və yeri dəqiqləşib. İdarədən SİA-ya verilən məlumata görə, imtahanlar yanvarın 29-30-da Bakı şəhəri 220 nömrəli məktəb-liseyin (ünvan: Nizami rayonu, Elşən Süleymanov 120 A, "Neftçilər" metrostansiyasının yaxınlığı) inzibati binasında təşkil olunacaq.



I mərhələnin (elektron ərizələrdə qeyd olunmuş məlumatlar əsasında müraciət etmiş şəxsin müvafiq vəzifə üzrə müsabiqədə iştirak üçün uyğunluğunun yoxlanılması) yekunu barədə məlumatlar qeydiyyatdan keçmiş namizədlərin şəxsi səhifələrinə göndərilib. Müsabiqələrin I mərhələsində 1157 müraciət təhlil edilib və 1053 nəfər test imtahanı mərhələsinə buraxılıb. Onlardan 91-i Gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər, 267-si uşaq birliyi təşkilatı rəhbəri, 637-si laborant olmaq üçün qeydiyyatdan keçib. 58 nəfər isə TDM-də çalışmaq üçün müsabiqəyə qatılıb.

Hər bir iştirakçının imtahan vaxtı barədə məlumat 26.01.2018-ci il tarixədək şəxsi səhifəyə göndəriləcək. İştirakçı imtahan zalına daxil olmaq üçün şəxsiyyət vəsiqəsini təqdim etməlidir. Əks halda, namizədin imtahanda iştirakı mümkün olmayacaq. İmtahanda iştirak etmək üçün iştirakçının iş nömrəsini bilməsi zəruridir. Müsabiqənin hər hansı mərhələsində elektron ərizədəki məlumatlarla mövcud vəziyyət arasında uyğunsuzluq aşkarlanarsa, namizədlərin nəticələri ləğv olunacaq.

# Baş Dövlət Yol Polisi İdarəsində əməliyyat müşavirəsi keçirilib




***Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsində 2017-ci ildə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində görülən işlər və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirin gündəliyini elan edib.***



Reqlament təsdiq edildikdən sonra Baş İdarənin rəisi, polis general-mayoru Ramiz Zeynalov görülmüş işlər və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış edib. R.Zeynalov deyib ki, maddi-texniki bazanın müasirləşməsi, xidmətin "elektron hökumət" dövlət proqramına uyğun qurulması, qayda pozuntularının texniki vasitələrlə aşkarlanması müasir innovasiyaların tətbiqinə geniş imkan yaradıb. Avtomobil yollarında foto və video-qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrlə yol hərəkətinə nəzarət gücləndirilib, il ərzində bütövlükdə 421 radar, 914 videokamera və 297 nömrəoxuma sistemi quraşdırılıb.

Məruzəçi qeyd edib ki, insanları narahat edən məsələlərin həllinə xüsusi həssaslıqla yanaşılması barədə DİN rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq, ərizə və şikayətlərin obyektiv araşdırılması, qəbulların müntəzəm keçirilməsi diqqət mərkəzində saxlanılıb. Baş İdarədə 700-dən çox vətəndaş qəbul edilib, daxil olmuş 90 minə yaxın sorğu və müraciət operativ qaydada cavablandırılıb.

Diqqətə çatdırılıb ki, bu gün ən müasir keşik avtomobillərinin, digər zəruri texnika və avadanlığın imkanlarından yararlanan Dövlət Yol Polisi tərəfindən il ərzində 3,3 milyondan çox yol hərəkəti qayda pozuntusu, o cümlədən 9,4 minə yaxın nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə edilməsi, 1,7 milyondan çox sürət həddinin aşılması, 140,5 min ötmə, manevr və qarşıdan gələn nəqliyyatın hərəkət zolağına çıxma qaydalarının pozulması, 135 minə yaxın yolayrıcını keçmə qaydalarının pozulması ilə bağlı fakt qeydə alınıb. Qayda pozuntularına görə 10 min 996 nəfərin sürücülük hüququ məhdudlaşdırılıb. Həmin inzibati xətaların 63,3 faizi xüsusi texniki vasitələrin köməyi ilə, qalanları isə "İ-patrul" sistemi vasitəsilə və əməkdaşlar tərəfindən aşkarlanıb.

Polis general-mayoru R.Zeynalov bildirib ki, həyata keçirilmiş tədbirlər, o cümlədən yol hərəkəti əleyhinə olan inzibati xətaların qarşısının alınması işinin gücləndirilməsi, bu sahədə bir tərəfdən vətəndaşların maarifləndirilməsi nəticəsində onlarda qanuna hörmət hissinin daha da artması, digər tərəfdən, inzibati məsuliyyət tədbirlərinin təkmilləşdirilməsi öz müsbət nəticələrini verib. Belə ki, son beş ildə nəqliyyat vasitələrinin sayının ilbəil artmasına baxmayaraq, yol-nəqliyyat hadisələrinin sayı azalıb. Ötən il respublika ərazisində baş verən 1833 yol-nəqliyyat hadisəsi nəticəsində 750 nəfər həlak olub. Həmçinin 1719 nəfər xəsarət alıb ki, bu da 2016-cı illə müqayisədə hadisələrin 8,6, həlak olanların 1,2, xəsarət alanların isə 14,2 faiz azalması deməkdir.

Qeyd olunub ki, yol polisinin əməkdaşları cinayətkarlıqla mübarizə sahəsində də fəal iştirak ediblər. Belə ki, onlar tərəfindən məlumat bazası ilə axtarışda olan 54 nəfər və 236 avtomobil saxlanılıb, polisin digər xidmətləri ilə birgə 40 kiloqramdan çox narkotik vasitə, 6 odlu silah aşkar edilərək istintaq orqanlarına verilib. Həmçinin qeydiyyat-imtahan məntəqələrində avtonəqliyyat vasitələrinin sənədləşdirilməsi zamanı axtarışda olan 27 şəxs və 9 avtomobil saxlanılıb, habelə 272 saxta sənəd aşkarlanaraq materiallar araşdırılması üçün təhqiqat orqanlarına göndərilib. Qaçırılmış və oğurlanmış 246 nəqliyyat vasitəsindən 227-nin "isti izlər"lə tapılması təmin edilib.

Baş İdarə rəisi əldə olunan müsbət nəticələrlə yanaşı, xidməti fəaliyyətdə bəzi nöqsan və çatışmazlıqların da mövcudluğunu etiraf edib, onların üzərində ətraflı dayanıb. Məruzə ətrafında çıxış edənlər görülmüş işlərdən, yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün qarşıda duran vəzifələrdən danışıblar.

Müşavirəyə yekun vuran daxili işlər naziri Ramil Usubov DYP xidmətinin ötənilki fəaliyyətinin nəticələrini yüksək qiymətləndirib, qarşıda çox mühüm vəzifələrin durduğunu bildirib, onların həlli üçün konkret tapşırıq və tövsiyələrini verib. Nazir hər bir əməkdaşın vəzifə borcunun öz xidməti funksiyalarını layiqincə yerinə yetirmək, fəaliyyətin bütün sahələrində işlərin uğurlu getməsi üçün peşəkarlığın ən vacib amil olduğunu xatırladıb, eyni zamanda, əldə olunan müsbət nəticələrdən arxayınlaşmamağı, daha məsuliyyətlə xidmət aparılmasını tələb edib.

General-polkovnik Ramil Usubov müasir dövrdə qanunvericilik aktlarının çox dinamik olduğunu, yeni ictimai münasibətlərin tənzimlənməsi baxımından vaxtaşırı dəyişikliyə məruz qaldığını xatırladaraq, onların dərindən öyrənilməsinin, praktikada düzgün tətbiqinin vacibliyini və zəruri hallarda vətəndaşlara izah etmək bacarığının mühüm əhəmiyyət daşıdığını bildirib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən hər cür şərait yaradıldığını, şəxsi heyətin dövlətin qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran Ramil Usubov dövlətimizin bu ali diqqətinə və etimadına cavab olaraq hər bir əməkdaşın üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, xidmətdə və xidmətdənkənar vaxtlarda başqalarına nümunə göstərəcəyinə əmin olduğunu bildirib.

Müşavirənin sonunda ötən il xidməti vəzifələrin icrasında fərqlənmiş bir qrup yol polisi əməkdaşının təltif edilməsi barədə daxili işlər nazirinin müvafiq əmrləri elan olunub. General-polkovnik Ramil Usubov mükafatları sahiblərinə təqdim edib.

# XİN: "Ermənistan prezidenti AŞPA-dakı çıxışı ilə yenə də beynəlxalq ictimaiyyəti aldatmağa çalışdı"



Ermənistan-Azərbaycan münaqişəsinin həllində əsas ədalətsizlik və ya Ermənistan rəhbərliyinin dediyi kimi, "ədalətin defisiti", ilk növbədə, Azərbaycanın suveren ərazilərinin işğalı və işğal olunmuş ərazilərdə bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qalması və onların bütün fundamental hüquqlarının pozulmasıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistan prezidentinin Avropa Şurası Parlament Assambleyasında çıxışına münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan Avropa Şurasına üzv qəbul olunarkən münaqişənin həllinə dair öz üzərinə öhdəliklər götürsə də, bunları hələ də yerinə yetirməyib. Avropa Şurası üzv dövlətlər arasında vahid hüquqi məkanın formalaşdırılmasına məsul olduğu halda, Avropa Şurasının üzv dövləti olaraq Ermənistan digər üzv dövlət olan Azərbaycanın ərazilərini işğal altında saxlamaqda davam edir. Güc tətbiq edərək digər dövlətin tanınmış sərhədlərini dəyişdirmək və ya ərazi əldə edilməsi cəhdləri qəbuledilməzdir.

"Ümid etmək istərdik ki, Avropa Şurasının rəhbərliyi bu kimi məsələləri, həmçinin Avropa İnsan Hüquqları Konvensiyası ilə nəzərdə tutulmuş bütün fundamental hüquqları pozulmuş azərbaycanlı məcburi köçkün və qaçqınların hüquqlarını Ermənistan rəhbərliyi qarşısında qaldırıb.

Münaqişənin həlli ilə əlaqədar Azərbaycanın haqlı və ədalətli mövqeyi bütün beynəlxalq ictimaiyyətə bəllidir və bu mövqe dəstəklənir. Azərbaycanın mövqeyinin əsasını BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı təşkil edir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması Azərbaycan icması ilə birlikdə Azərbaycanın sərhədləri daxilində öz müqəddəratını təyin etmək hüququndan istifadə edə bilər.

Münaqişənin həllində irəliləyişə nail olmaq üçün mərhələli prosesin tərkib hissəsi kimi, ilk növbədə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafındakı rayonlardan Ermənistan qoşunları çıxarılmalı, növbəti addımların atılması üçün zəmin yaradılmalıdır. Bu, münaqişənin həllində yeganə mümkün və real həll variantıdır.

Bununla işğala və təcavüzə məruz qalmış tərəf kimi Azərbaycanın etimadı təmin olunmalıdır. 2017-ci ilin avqustunda ATƏT-in ABŞ-dan olan həmsədri Riçard Hoaqland digər həmsədrlərlə həmrəy şəkildə münaqişənin həlli üzrə atılmalı olan mərhələli addımları açıqladı. Bu günlərdə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov tərəfindən də münaqişənin mərhələli həlli barədə açıqlama verildi. Mürəkkəb xarakter daşıyan Ermənistan-Azərbaycan münaqişəsinin bir səndlə həll edilməsinə dair Ermənistanın iddiası utopiyadır və münaqişənin həllinə imkan verməmək üçün bəhanədən başqa bir şey deyildir.

Ermənistanın 2016-cı ilin aprelində təmas xətti boyunca mülki insanları ağır silahlardan hədəfə alması bizə Ermənistan prezidentinin şəxsən iştirak etdiyi Xocalı soyqırımının acılarını bir daha xatırlatdı. Azərbaycan silahlı qüvvələrinin əks-həmlə tədbirləri ilə Ermənistanın mülki insanlara qarşı təxribat və hücumlarının qarşısı alındı. 1988-ci il Sumqayıt hadisələrinin SSRİ rəhbərliyi, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi və Ermənistan SSR DTK tərəfindən təşkil olunması SSRİ Baş Prokurorluğu tərəfindən aparılan və Azərbaycan Baş Prokurorluğu tərəfindən təkrar icraata götürülən istintaq vasitəsilə təsdiq olunub. Sumqayıt hadisələrinin təşkilatçısı və onu törədən şəxs əslən erməni Eduard Qriqoryan müəmmalı şəkildə Ermənistanda həbsdən azad edilib. Hazırda onun xüsusi himayə altında harada olduğunu Ermənistan rəhbərliyi gözəl bilir.

Sumqayıtda törədilmiş cinayət araşdırıldı və onun iştirakçısı olan şəxslər, o cümlədən azərbaycanlılar ən ağır cəza növü ilə cəzalandırıldılar. Ermənistan ərazisində, işğal olunmuş Azərbaycan ərazilərində azərbaycanlılara qarşı törədilmiş heç bir cinayət işi, o cümlədən insanlıq əleyhinə cinayət əməli olan Xocalı soyqırımı araşdırılmayıb. Avropa Şurası Parlament Assambleyasındakı çıxışı ilə Ermənistan rəhbərliyi yenə də beynəlxalq ictimaiyyəti aldatmağa, Ermənistanda mövcud olan köklü siyasi, iqtisadi və sosial problemlərdən diqqəti yayındırmağa çalışıb. Ermənistan rəhbərliyi nəhayət başa düşməlidir ki, nə qədər tez münaqişə həll olunarsa, bir qədər də tez Ermənistan əhalisi yaranacaq regional əməkdaşlıq imkanlarından faydalana biləcək", - deyə Hikmət Hacıyev vurğulayıb.

# Davosda “Ekspo 2025” Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı təqdimat mərasimi keçirilib

***Yanvarın 23-də İsveçrənin Davos şəhərindəki “InterContinental” otelində “Ekspo 2025” Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı təqdimat mərasimi keçirilib. Dünya İqtisadi Forumunun keçirildiyi Davosun müxtəlif guşələri “Bakı Ekspo 2025”ə həsr olunan poster və banerlərlə bəzədilmişdi. “Bakı Ekspo 2025” Əməliyyat Katibliyindən AZƏRTAC-a bildiriblər ki, təqdimat mərasimi videoproyeksiyanın nümayişi ilə başladı.***




Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Beynəlxalq Sərgilər Bürosunda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov mərasimdə çıxış edərək bildirdi ki, Bakının təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusu builki Dünya İqtisadi Forumunun “Pərakəndə dünyada ümumi gələcəyin qurulması” mövzusu ilə geniş mənada üst-üstə düşür. Dünya İqtisadi Forumu kimi Ümumdünya Ekspo Sərgisi də müzakirə və ideya mübadiləsi məqsədilə dünyanı bir araya gətirən vacib mexanizmdir.

Təqdimat mərasimi ilə bağlı fikirlərini bölüşən nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov vurğuladı ki, Bakının “Ekspo 2025” üçün təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusunun Dünya İqtisadi Forumunun keçirildiyi Davos şəhərində müzakirə







mövzusu builki Dünya İqtisadi Forumunun “Pərakəndə dünyada ümumi gələcəyin qurulması” mövzusu ilə geniş mənada üst-üstə düşür. Dünya İqtisadi Forumu kimi Ümumdünya Ekspo Sərgisi də müzakirə və ideya mübadiləsi məqsədilə dünyanı bir araya gətirən vacib mexanizmdir.

Səfir Elçin Əmirbəyov vurğuladı ki, insan kapitalının inkişafı insanların texnoloji tərəqqiyə uyğunlaşması yollarının tapılmasına, hər bir fərdin həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etmək deməkdir. İnsan kapitalının inkişafı sabit və sağlam cəmiyyətlərin formalaşmasında əsas amillərdən biridir. Biz inanırıq ki, hazırda insan kapitalının inkişafına diqqət yetirilməsinin, genişlənən qeyri-bərabərliyin azaldılmasının, iqtisadi artıma, kreativliyə və uğura nail olmaq imkanlarının yaradılmasının vaxtı çatıb. Elçin Əmirbəyov çıxışında Bakının “Ekspo 2025” ilə bağlı təklif etdiyi alt mövzuların - təhsilin, məşğulluğun və səhiyyənin vacibliyini də qeyd edib. Bildirib ki, bu mövzular BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə üst-üstə düşür. Bu mövzuların mahiyyətini aşağıdakı kimi şərh etmək olar:

Təhsil. Biz insanlara işləməkdə, bacarıqlı cəmiyyətlər formalaşdırmaqda və texnoloji dəyişiklikləri idarə etməkdə təhsilin və təlimin vacibliyini qəbul edirik;

Məşğulluq. Biz fərdlərin məşğulluq vasitəsilə cəmiyyətdə fəal iştirak etmək ehtiyacını qəbul edirik, eyni zamanda, texnologiyanın əmək bazarına təsirini də qeyd edirik;

Səhiyyə. Biz düşünürük ki, insan kapitalının inkişafı məhz sağlam cəmiyyətlərdə səmərəli şəkildə baş verə bilər.







etməkdən şərəf duyuruq. Dünya həmişəkindən daha sürətlə dəyişir. Bakının “Ekspo 2025” üçün təklif etdiyi alt-mövzular - insanın əsas ehtiyacları olan təhsil, məşğulluq və səhiyyə dünyanın hər bir ölkəsinin üzləşdiyi məsələlərdir. İqtisadiyyatlar və cəmiyyətlər transformasiyaya uğrasa da, bu mövzular insanları birləşdirir və onların həyat seçimlərinə təsir göstərir. Bu baxımdan öz baxışlarımızı Davosda təqdim etmək imkanından çox məmnun olduq. Tədbir zamanı və sonra aldığımız müsbət reaksiya bizdə ruh yüksəkliyi yaradır. Mərasimdə “Bakı Ekspo 2025”in təqdimatına həsr olunan film nümayiş etdirildi. Filmdə ölkəmizin tarixi, mədəniyyəti və ev sahibliyi etdiyi tədbirlər barədə geniş məlumat verildi.

Böyük maraqla qarşılanan təqdimat mərasiminin əsas məqsədi iştirakçılara Bakının ismarıcını çatdırmaq idi. İştirakçılar arasında dövlət və özəl sektorları təmsil edən nümayəndələr, o cümlədən diplomatlar, təhsil və media qurumlarının əməkdaşları, müxtəlif şirkətlərin rəhbərləri var idi.

Xatırladaq ki, Azərbaycan milli pavilyonla ilk dəfə “Milan Ekspo 2015” Ümumdünya Sərgisində iştirak edib. Ölkəmizin “Milan Ekspo 2015”dəki pavilyonunu sərgi günlərində ziyarət edən insanların sayı 3 milyondan çox olub. Türkiyədə təşkil olunan “Antalya Ekspo 2016” Beynəlxalq Botanika Sərgisində də Azərbaycanın milli pavilyonu iştirakçılarda böyük maraq doğurub. Astanada keçirilən “Ekspo 2017” Beynəlxalq Sərgisində isə ölkəmiz “Enerji yurdu - keçmişdən gələcəyə daşınan enerji” konsepsiyası əsasında hazırlanan pavilyonla təmsil olunub.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 yanvar 2018-ci il

# Azərbaycan reallıqlarının Davos Dünya İqtisadi Forumu kimi mötəbər tribunadan səsləndirilməsi müstəsna əhəmiyyətə malikdir

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Prezident İlham Əliyevin Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyi görüşlərin və "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda çıxışının əhəmiyyətini AZƏRTAC-a müsahibəsində şərh edib. Müsahibəni təqdim edirik.

***-Siyavuş müəllim, dünyanın diqqəti yenidən Davosdadır. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib, "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirak edib. Forumun əhəmiyyəti və Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?***

-48-ci dəfə keçirilən ənənəvi Davos Forumu bu dəfə "Parçalanmış dünyada birgə gələcəyin yaradılması" mövzusuna həsr olunub. Azərbaycan Prezidenti İlham Əliyev Forum çərçivəsində "Strateji baxış: Avrasiya" panelindəki müzakirələrdə çıxış edib və həm ölkəmiz, həm də region və dünya üçün müstəsna əhəmiyyətə malik olan çox mühüm məsələlərlə bağlı fikirlər söyləyib. Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında uzun illərdir həyata keçirilən əməkdaşlığın yaxşı perspektivlərə malik olduğu qeyd edilib, eyni zamanda, Azərbaycanın iqtisadi inkişafı, beynəlxalq nüfuzu və ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi islahatların əhəmiyyəti diqqətə çatdırılıb.

Həqiqətən də, bu gün Azərbaycan öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Neft gəlirlərinin səmərəli idarə edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun tərəqqisi, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi kimi fundamental tədbirlər xüsusi olaraq vurğulanmalıdır. Bütün bunlar ölkəmizin iqtisadiyyatının davamlı tərəqqisini təmin edən strateji amillərdir. Məhz bunların nəticəsidir ki, Azərbaycan həm də yüksək beynəlxalq reytinqə malikdir. Prezident İlham Əliyev interaktiv iclasdakı çıxışı zamanı qeyd edib ki, iqtisadiyyatın şaxələndirilməsi bizim əsas məqsədimizdir. Dövlətimizin başçısı onu da vurğulayıb ki, "biz hazırda icra etdiyimiz layihələri başa çatdırmalıyıq, ancaq əsas gəlir mənbələri kimi biz texnologiya, innovasiya, sənaye, sahibkarlıq və kənd təsərrüfatı sahələrini nəzərdən keçirməliyik". Əlbəttə, məqsədyönlü və çoxşaxəli islahatların ardıcıl və müntəzəm şəkildə davam etdirilməsi iqtisadiyyatın şaxələndirilməsini təmin edib və qarşıdakı dövrdə də bu proses davamlı xarakter daşıyacaq.

Azərbaycanın iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər həm də statistik göstəricilərdə öz əksini tapıb. Başa vurduğumuz 2017-ci ildə ÜDM-in artımı qeydə alınıb, qeyri-neft sektorunun payına düşən artım isə təqribən 3 faiz təşkil edir. Ötən il ərzində valyuta ehtiyatlarımız 4,5 milyard dollar civarında artıb ki, bu da iqtisadi siyasətin olduqca səmərəli, məqsədyönlü olduğunu göstərir. Digər tərəfdən, Azərbaycanın hazırda valyuta ehtiyatlarının həcmi təxminən 42 milyard dollar təşkil edir ki, bu da adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə dünya miqyasında çox böyük göstəricidir. Prezident İlham Əliyev qeyd edib ki, ötən il neftin qiymətinin hələ də aşağı olmasına baxmayaraq, biz ehtiyatlarımıza daha 4,5 milyard dollar əlavə edə bilmişik: "Bu isə o deməkdir ki, hətta neftin qiyməti aşağı olsa belə bizim üçün narahatlığa səbəb yoxdur. Builki büdcəmizdə neftin qiymətinin 45 dollar səviyyəsində olması nəzərdə tutulub və bundan artıq toplanan bütün vəsait Neft Fonduna yönləndiriləcəkdir".

Yeni nəsil islahatların həyata keçirilməsi fonunda təhsil, səhiyyə, sosial və digər istiqamətlərdə ardıcıl tədbirlərin reallaşdırılması sosial infrastruktur quruculuğunun da diqqət mərkəzində olduğunu göstərir.

Azərbaycan reallıqlarının Davos Dünya İqtisadi Forumu kimi mötəbər beynəlxalq tribunadan səsləndirilməsi müstəsna əhəmiyyətə malikdir. Bəllidir ki, həyata keçirilən iqtisadi islahatların nəticəsində əldə edilən çoxsaylı uğurlar ölkəmizin beynəlxalq iqtisadi reytinqinin yüksəlməsinə də əhəmiyyətli töhfələr verib. Azərbaycanın iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq miqyasda da yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı 2017-ci ildə rəqabətqabiliyyətliliyinə görə 2 pillə irəliləyib və dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, olduqca mühüm göstərici olmaqla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir.

Prezident İlham Əliyevin Davosda transmilli şirkətlərin təsisçisi və sədrləri ilə bir sıra mühüm görüşlər keçirməsi də Azərbaycanın beynəlxalq nüfuzunun artması, əməkdaşlıq əlaqələrinin inkişafı kontekstində böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Azərbaycanın Dünya İqtisadi Forumunda uğurla təmsil olunması ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsi baxımından xüsusi önəmə malikdir. Onu da qeyd edim ki, Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı və orada söylədiyi fikirlər böyük maraq doğurub. Mütəxəssislər Azərbaycanın dövlət başçısının təhlillərinə və irəli sürdüyü fikirlərə ciddi diqqət yetiriblər, dövlət başçısının səsləndirdiyi fikirlər beynəlxalq mətbuatın da diqqət mərkəzində olub.



***-Yeri gəlmişkən, Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən mətbuat azadlığının təmin olunduğunu da diqqətə çatdırdı...***

-Bəli, dövlətimizin başçısı qeyd etdi ki, "mətbuat tamamilə azaddır. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. İnternetin azad, senzuranın olmadığı və əhalinin mütləq əksəriyyətinin internet istifadəçisi olduğu halda mətbuat azadlığının məhdudlaşdırılması haqqında danışmaq əsassızdır".

*YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun AZƏRTAC-a müsahibəsi*

Ümumiyyətlə, ölkəmizə qarşı təzyiqlərə və şantaja əl atan bəzi antiazərbaycan dairələr Azərbaycanda bərqərar olan söz və mətbuat azadlığı məsələsini manipulyasiya alətinə çevirməyə çalışırlar. Halbuki ölkəmizdə fikir plüralizminə yaradılan şərait, müstəqil mətbuatın inkişafına göstərilən diqqət və qayğı göz önündədir. Azərbaycanda azad sözün inkişafı üçün 1998-ci ildən etibarən kütləvi informasiya vasitələri üzərində dövlət senzurası tamamilə aradan qaldırılıb. KİV-in azad fəaliyyətinin təmin olunması üçün bir sıra qanunların qəbulundan sonra bu sahədə formalaşan mühit onu deməyə əsas verir ki, Azərbaycanda fikir və söz azadlığı etibarlı şəkildə və yüksək səviyyədə təmin olunub. Mövcud olan hüquqi baza da vətəndaşların fikir və düşüncələrini sərbəst ifadə etməsi üçün geniş imkan yaradır. "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında" və digər qanunlarla ölkədə media qurumlarının sərbəst şəkildə yaradılması və fəaliyyəti təmin edilib. Digər tərəfdən, Azərbaycanda jurnalistlərin mənzil-məişət şəraitinin və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan siyasi mövqeyindən asılı olmayaraq bütün jurnalistlər yararlana bilirlər, hər hansı bir ayrı-seçkilik müşahidə edilmir. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu vasitəsilə ayrılan maliyyə vəsaiti isə dövlətin mətbuatın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bütün bunlara baxmayaraq, Azərbaycanın suveren iradəsini, müstəqil daxili və xarici siyasətini narahatlıqla qarşılayan qüvvələr, erməni lobbisi və antiazərbaycan dairələr qarayaxma kampaniyası vasitəsilə ölkəmizə təzyiq etməyə çalışırlar. Bu zaman "sapı özümüzdən olan baltalar"la yanaşı, "Freedom House", "Human Rights Watch" kimi təşkilatların, Soros Fondunun xidmətlərindən istifadə edirlər. Həmin təşkilatların hesabatlarında ölkəmizlə bağlı qərəzli və subyektiv mülahizələrə əsaslanan məqamlar yer alır. Belə təşkilatlar 25 ildən artıqdır ki, ölkəmiz haqqında qeyri-obyektiv, qərəzli, ölkəmiz haqqında məlumatı olmayan, kimlərinsə yazdığını götürüb dərc edən, fikirlər yayımlayan qurumlardır. Sadəcə olaraq həmin qurumlar erməni lobbisinin və antiazərbaycan dairələrin əlində alətə çevriliblər.

Azərbaycanda, həmçinin siyasi partiyaların, vətəndaş cəmiyyəti institutlarının qanunlar əsasında sərbəst fəaliyyətinə şərait yaradılıb. 2007-ci ildə MDB məkanında ilk dəfə olaraq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyasının yaradılması, eləcə də 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının formalaşdırılması bilavasitə vətəndaş cəmiyyəti institutlarının inkişafına çox böyük təkan verib. Bu qurum vasitəsilə dövlət tərəfindən vətəndaş cəmiyyəti institutlarına hər il maliyyə vəsaiti ayrılır. Siyasi partiyalara dövlət büdcəsindən vəsaitin ayrılması da bir çox Avropa dövlətləri, inkişaf etmiş ölkələr üçün örnəkdir. Digər tərəfdən, Azərbaycanın insan hüquqları ilə bağlı yaradılmış qanunvericilik bazası, bu istiqamətdə atılan addımlar, görülən işlər mütərəqqi nümunədir. Bu günə qədər Azərbaycanda 11 dəfə amnistiya aktı qəbul edilib, dövlətimizin başçısı tərəfindən 60-dan çox əfv fərmanı və sərəncamı imzalanıb. Nəticədə 10 minlərlə insan azadlığına qovuşub.

Ölkəmizdə, eyni zamanda, sərbəst toplaşmaq azadlığı və digər azadlıqlar təmin olunub. Sosial bazası - elektoratı olmayan, xalqdan heç bir dəstək almayan radikal müxalifət partiyaları sərbəst toplaşmaq azadlığı ilə bağlı müxtəlif bəhanələr səsləndirərək Azərbaycanın müsbət beynəlxalq imicinə xələl gətirməyə çalışırlar. 20 Yanvar - Ümumxalq Hüzn Günü ərəfəsində həmin antimilli qüvvələrin "siyasi şou" təşkil etməyə can atmaları onların siyasi siması və mahiyyətini əks etdirir.

Bütövlükdə, Azərbaycana qarşı təzyiq kampaniyasının, ölkəmizlə bağlı qərəzli və qeyri-obyektiv məlumatlar verilməsinin başlıca səbəbi dövlətimizin müstəqil siyasət həyata keçirməsidir. Prezident İlham Əliyev qeyd edib ki, "Azərbaycanı müəyyən ölkələr əleyhinə kampaniyalara sürükləmək cəhdləri olub. Biz hər zaman bitərəf qalmışıq. Biz heç kəsə qarşı oyun aparmırıq və heç bir riskli və milli maraqlarımıza uyğun olmayan kampaniyanın tərkib hissəsi deyilik. Yəni, hücumların səbəblərindən biri bəzilərinin Azərbaycanı kiçik dövlət üçün artıq dərəcədə müstəqil hesab etməsidir. Bəzi QHT-lərin belə reytinqləri ölkəmizi gözdən salmaq, nüfuzumuza xələl gətirmək və Azərbaycanı qeyri-demokratik dövlət kimi təqdim etmək məqsədi daşıyır. Bu isə qətiyyən belə deyil".

***-Siyavuş müəllim, Azərbaycanın müstəqil siyasət yürüdən dövlət olduğunu deyən Prezident İlham Əliyev bu siyasətin milli maraqlarımıza söykəndiyini, ölkəmizdə sabit siyasi və iqtisadi vəziyyətin mövcud olduğunu diqqətə çatdırdı. Bu barədə nə deyə bilərsiniz?***

-Azərbaycan kifayət qədər güclü dövlətdir, ölkəmiz yüksək beynəlxalq nüfuza malikdir. Azərbaycan həm də müstəqil siyasət həyata keçirir. Bütün dövlətlərlə bərabərhüquqlu əlaqələr yaradır, münasibətləri öz maraqları əsasında davam və inkişaf etdirir. Bunun da əsasında ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin qətiyyətli siya-

si iradəsi dayanır. Ölkəmizdə çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilir. Azərbaycan sivilizasiyalararası dialoqa mühüm töhfələr verən tədbirlərə uğurla ev sahibliyi edir və dünyanın multikulturalizm mərkəzlərindən biri sayılır. Bütün bunlar uğurlu və hərtərəfli inkişaf siyasətinin səmərəli nəticələridir.

Digər tərəfdən, siyasi-hüquqi islahatların mütəmadi qaydada və prinsipiallıqla davam etdirilməsi sabitliyin və təhlükəsizliyin təmin olunmasına önəmli töhfələr verməklə yanaşı, demokratik inkişafı da sürətləndirməkdədir. Təsadüfi deyil ki, Azərbaycan vətəndaşları son 14 il ərzində həyata keçirilən siyasəti dəyərləndirərkən ictimai-siyasi sabitlik amilinə xüsusi diqqət yetirirlər. Azərbaycan bu gün müasirləşən, sürətlə inkişaf edən, ictimai-siyasi sabitliyin mövcud olduğu bir ölkəyə çevrilib. Bunun nəticəsidir ki, beynəlxalq aləmin Azərbaycana diqqəti kifayət qədər artıb. Dünya miqyasında çoxsaylı siyasi kataklizmlərlə müşayiət olunan, müxtəlif ölkələrdə stabillik və təhlükəsizliyin pozulduğu ötən müddət ərzində Azərbaycanda sabitlik qorunub saxlanılıb, ölkəmiz kənar təsirlərə məruz qalmadan öz siyasi sabitliyini qoruya bilib. Əminliklə söyləmək olar ki, ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi ictimai-siyasi sabitliyin başlıca təminatçısıdır. Azərbaycan xalqı öz Prezidentini dəstəkləyir, Prezident İlham Əliyev isə Azərbaycan dövlətinin maraqlarını qətiyyətlə müdafiə edir. Təsadüfi deyil ki, Azərbaycan Davos İqtisadi Forumunun son hesabatında "Siyasətçilərə ictimai etimad" kateqoriyası üzrə dünyada 137 ölkə arasında 20-ci yerə yüksəlib. Ölkəmiz "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü, bütün postsovet respublikalarını və türk dövlətlərini qabaqlayır. Bu, Azərbaycanda həyata keçirilən inkişaf siyasətinin vətəndaşlar tərəfindən rəğbətlə və məmnunluqla qarşılanmasının ifadəsidir.

***- Dünya İqtisadi Forumunda Azərbaycanla bağlı səsləndirilən fikirlər ölkəmizin dayanıqlı inkişafının, beynəlxalq əlaqələrinin genişlənməsinin qarşıdakı dövrdə də davam edəcəyini deməyə əsas verir. Bu barədə nə düşünürsünüz?***

- Əvvəla qeyd edim ki, Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda Azərbaycan reallıqlarını qətiyyətlə və dolğun şəkildə ifadə etdi. Ümumiyyətlə, Forumda səsləndirilən fikirlər onu göstərir ki, Azərbaycan uğurla inkişaf edir, siyasi və iqtisadi islahatların paralel olaraq davam etdirilməsi bütün sahələrdə mühüm nailiyyətlərin əldə olunmasını təmin edib. Bu gün Azərbaycan beynəlxalq miqyasda nüfuzlu və cəlbedici ölkəyə çevrilib, ölkəmizə maraq və diqqət daha da artıb. 2017-ci ildə ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu, Azərbaycanın yüksək iqtisadi reytinqə malik olduğunu göstərir. Bu, həm də onun ifadəsidir ki, həm yerli, həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. İqtisadi və siyasi sabitlik, valyuta ehtiyatlarımız, reallaşdırılan layihələrin kommersiya cəlbediciliyi xarici sərmayənin ölkəmizə cəlb olunmasını təmin edib. Bir sözlə, Azərbaycan bu gün dünya miqyasında sərmayə qoyuluşu üçün cəlbedici ölkəyə çevrilib.

Hazırkı reallıqlar onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət sayəsində qarşıdakı dövrdə Azərbaycanın uğurlu və dayanıqlı inkişafı təmin ediləcək. Şübhəsiz ki, postneft dövründə yeni nəsil islahatlar davam etdiriləcək, bu isə maliyyə sabitliyinin və iqtisadi sabitliyin qorunub saxlanması, qeyri-neft sektorunun davamlı inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Bütün bunlar həm də Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli əlaqələrinin genişlənməsinə xidmət edəcək. Forum çərçivəsində ifadə olunan fikirlər ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinin qarşıdakı dövrdə də davam edəcəyini deməyə əsas verir.

# Hikmət Babaoğlu: "Prezident öz cavabı ilə həqiqətləri dünyaya çatdırmış oldu"

"Heç bir peşə etikası, mənəvi, əxlaqi və obyektivlik sərhədi olmayan "Sərhədsiz reportyorlar" adlı böhtan ruporunun noyabr ayında açıqladığı yalanın Davos İqtisadi Forumu kimi ciddi bir platformada xatırladılması nə peşəkarlıq baxımından, nə də aktuallıq baxımından doğru deyildi. Ancaq eyni zamanda Azərbaycan Prezidentinə belə sualın ünvanlanmasının özü də təsadüfi deyildi. Görünür bir yalanı yenidən təkrarlamaq və ölkəmizə təkrar qara yaxmaq üçün Azərbaycanı sevməyən bəzi mərkəzlərin əlinə fürsət düşmüşdü. Ancaq Prezident İlham Əliyev öz obyektiv və əsaslandırılmış cavabı ilə bu qərəzli sualdan da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması imkanı kimi istifadə etməyi bacardı". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, Prezident İlham Əliyevin də söylədiyi kimi Azərbaycanda bütün fundamental azadlıqlar təmin olunur: "Hər bir kəndə geniş zolaqlı internet xəttinin çəkilməsi ilə bağlı böyük proqram həyata keçirilib. Ümumiyyətlə, ölkəmizə qarşı səslənən fikirlərin siyasi səbəbləri var və bunun reallıqla heç bir əlaqəsi yoxdur. Bu təsnifat olduqca qərəzli yanaşma üzərində qurulub. Hərdən bu yanaşma bədxah olur. Bunlar Qərbdə müəyyən siyasi mərkəzlərin fəaliyyətinin məhsuludur".



Azərbaycanın müstəqil siyasət yürüdən dövlət olduğunu xatırladan H.Babaoğlu bildirib ki, bu siyasət milli maraqlarımıza söykənir: "Biz ölkəmiz üçün çətinlik doğura biləcək heç bir riskli macəraya qoşulmuruq. Qeyd etdiyim kimi, bizim üçün daxili risklər mövcud deyil. Bizdə sabit siyasi və iqtisadi vəziyyət var. Üzləşə biləcəyimiz bütün potensial risklər xaricdən qaynaqlana bilər. Azərbaycanı müəyyən ölkələr əleyhinə kampaniyalara sürükləmək cəhdləri olub. Biz hər zaman bitərəf qalmışıq. Biz heç kəsə qarşı oyun aparmırıq və heç bir riskli və milli maraqlarımıza uyğun olmayan kampaniyanın tərkib hissəsi deyilik. Yəni, hücumların səbəblərindən biri bəzilərinin Azərbaycanı kiçik dövlət üçün artıq dərəcədə müstəqil hesab etməsidir. Azərbaycan Prezidentinin Forumdakı sərrast və dəqiq cavabı ilə hesablaşmamaq mümkün deyil. Daxili auditoriyamız üçünsə bu cavab bizim dünya siyasətini obyektiv dərk etməyimiz üçün bir ipucudur".

## TANAP Türkiyədə təhsil layihəsinə dəstək verir

Trans-Anadolu qaz boru kəmərinin operatoru olan TANAP şirkəti Türkiyədə təhsil layihəsinə dəstək verir. AZƏRTAC şirkətə istinadla xəbər verir ki, TANAP-ın Öğretmen Akademisi Vakfı (ÖRAV) ilə birgə həyata keçirdiyi "Müəllimin izində" təhsil layihəsi çərçivəsində Türkiyədə məktəb direktorları və müəllimlərə təlim keçirilir. Belə ki, Ankara, Ərzincan, Əskişəhər, Bayburt və Ərzurumda ümumilikdə 12 qrup olmaqla məktəb direktorları üçün "Akademik liderlik" mövzusunda təlim təşkil edilib. Təlimdə 269 məktəbdən 303 məktəb direktoru və ya müavin iştirak edib. Bundan başqa, Ankara, Ərzincan və Ərzurumdakı 12 qrup olmaqla müəllimlər üçün də təlim keçirilib. Təlimdə 113 məktəbdən 342 müəllim iştirak edib.

# "Sarkisyanın çıxışı bir çox problemlər yaradacaq"

"Hesab edirəm ki, Ermənistan prezidenti Serj Sarkisyanın Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasındakı çıxışı onun üçün bir çox problemlər yaradacaq". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputatın sözlərinə görə, ilk növbədə Sarkisyanın 10 illik prezidentliyi Ermənistana hər hansı bir inkişafa və problemin həllinə gətirib çıxarmadı: "Eyni zamanda 1992-ci ildə Xocalı faciəsinin törədilməsində birbaşa iştirakı da onun əleyhinə işləyəcək. Azərbaycanlı deputatlar artıq Sarkisyana suallara yazılıblar və suallar onun cavab verməsi üçün böyük çətinliklər yaradacaq. Bununla belə digər nümayəndə heyətinin üzvləri də Ermənistan prezidentindən qeyri-konstruktiv siyasət apardığını, öz hakimiyyətini uzatması üçün Konstitusiyanı kökündən dəyişməyini, eyni zamanda apardığı siyasət nəticəsində ermə-



ni əhalisinin durmadan Ermənistandan köçməsinin səbəblərini soruşacaqlar. Biz bu gün axşam artıq Sarkisyanın nə cür çətinliyə düşməsi barədə məlumat əldə edəcəyik. Ümumən götürdükdə bu gün tək Sarkisyan deyil, Ermənistanın rəsmi hakimiyyətinin nümayəndələrinin hər hansı bir auditoriya qarşısında çıxışı etirazlara, kəskin suallara, onların özlərinin səsləndirdiyi fikirlərin özlərini çətin situasiyaya salması ilə nəticələnir".

# Pirallahıda "700 min ağac əkək" kampaniyası davam edir

YAP Pirallahı rayon təşkilatı "700 min ağac əkək" kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyasını keçirib. Aksiya Pirallahı Rayon İcra Hakimiyyəti və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə təşkil olunub.

Ağacəkmə aksiyasında YAP Pirallahı rayon təşkilatının fəalları, eyni zamanda rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Rayon təşkilatının üzvləri və ictimaiyyət nümayəndələri tərəfindən 200-dən çox zeytun ağacı və



digər növ ağaclar mərkəzi magistral yol boyunca əkilmiş, eyni zamanda əkilən ağaclara aqrotexniki qulluq göstərilmişdir.

**RÖVŞƏN**

# "Azərbaycan Prezidentinin Davosda keçirdiyi görüşlər həm iqtisadi, həm də siyasi baxımdan mühüm önəm kəsb edir"

***Davos Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi görüşlər həm iqtisadi, həm də siyasi baxımdan mühüm önəm kəsb edir.***



Bunu AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Arzu Nağıyev bildirib. O deyib ki, 70-dən artıq dövlət və hökumət başçısının, 100-dən çox ölkədən 3 minə yaxın nümayəndənin iştirak etdiyi Forum çərçivəsində Prezident İlham Əliyev 30-a yaxın görüş keçirib və bir sıra iclaslarda iştirak edib.

Siyasi şərhçi qeyd edib ki, dövlətimizin iqtisadi əlaqələri genişlənir, artıq Azərbaycanın iştirakı ilə müxtəlif ölkələrin dövlət və hökumət başçıları dünyada baş verən ən mühüm siyasi məsələləri müzakirə edirlər. "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı görülən işlərin, TANAP və TAP kəmərləri, "Şahdəniz-2" yatağından ilk qazın hasil olunması məsələlərinin müzakirəsi xüsusi qeyd edilməlidir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, dəniz limanının tikintisi də mühüm məsələ kimi gündəmdə olub. Bu cür beynəlxalq layihələr, ilk növbədə, Azərbaycan vətəndaşının rifahına xidmət edir. Qeyri-neft sektorunun inkişafı da bu sıradandır. Təkcə sahibkarlığın dəstəklənməsi üçün xüsusi fonddan on il ərzində 2 milyard dollar həcmində vəsait verilib, regionların inkişafı ilə bağlı 3-cü dövlət proqramı icra edilir. Azərbaycan Prezidenti İlham Əliyev bütün görüşlərində vurğulayır ki, regional əməkdaşlığa yalnız siyasi cəhətdən sabit və inkişaf edən ölkələrdə nail olunur.

Siyasi şərhçi deyib ki, bütün beynəlxalq tribunalardan olduğu kimi, bu Forumda da Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsindən danışdı, qonşularla münasibətləri ön plana çəkdi, Azərbaycanda daxili risk və ya təhdidlərin mövcud olmadığını vurğuladı. Prezident ərazilərimizin 20 faizini işğal etmiş Ermənistan istisna olmaqla, ölkəmizin bütün qonşularla çox yaxşı münasibətlərə malik olduğunu qeyd etdi.

Arzu Nağıyev vurğulayıb ki, siyasi və iqtisadi maraq kəsb edən məsələlərdən biri də Davosda "Ekspo 2025" Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı təqdimat mərasiminin keçirilməsi oldu.

# "Dünya İqtisadi Forumu çox dəyərli platformadır"



"Dünya İqtisadi Forumu Azərbaycan üçün olduqca əhəmiyyətlidir və Azərbaycan aparıcı ölkələr üçün əhəmiyyətli tərəfdaşdır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib. Onun sözlərinə görə, bu forum 48-ci dəfə keçirilir və bu forum artıq bir ənənəyə çevrilib: "Azərbaycan Prezidenti İlham Əliyev bu forumun ən hörmətli, mötəbər qonaqları sırasındadır. Bu İqtisadi Forumda müzakirə olunan məsələlər hər zaman diqqət mərkəzində olub, aparıcı şirkətlər iş adamları öz mövqelərini ortaya qoyublar və Azərbaycanla əməkdaşlıq etmək üçün danışıqlar aparırlar. Bütün bunların hamısı ölkəmizin artıq dünya iqtisadi məkanında çox əhəmiyyətli və tutarlı bir tərəfdaş olduğunu göstərir. Bu forumun ilk dəfə zirvə toplantısının Bakıda keçirilməsi Azərbaycana olan etimadın və hörmətin bir göstəricisidir. Azərbaycan şübhəsiz özünün iqtisadiyyatı, xüsusən də qeyri-neft sektoru sahəsindəki inkişafı, Azərbaycan istehsal etdiyi məhsulların dünya bazarına çıxarılması, qarşılıqlı səmərəli tərəfdaşlığın qurulması üçün çox böyük əhəmiyyətə malikdir".

Musa Quliyev daha sonra qeyd edib ki, Dünya İqtisadi forumunun reytinq cədvəlində də Azərbaycan öz yerini möhkəmləndirir və irəliləyir. Artıq ötən ilə nisbətən Azərbaycan rəqabətli indeksinə görə dünyada beşinci yerdədir və bu böyük nəticədir. Elan olunan çox vacib, iqtisadiyyatın inklüzivliyinə görə Azərbaycan 3-cü pillədə qərarlaşıb və bu da ölkəmizin qısa zaman ərzində inkişaf edilən dövlətlər sırasına keçməsini sübut edir. Bu iqtisadi forumda iştirak etmək Azərbaycanın maraqlarıyla yanaşı, həmdə bizim ərazi bütövlüyümüzlə bağlı məsələlər dünyada beynəlxalq aləmdə səsləndirilir. Azərbaycanın dünyada mövqeyinin möhkəmlənməsi üçün Dünya İqtisadi Forumu çox dəyərli bir platformadır.



# Ərdoğan: "Bölgəmizi tamamilə terrorçulardan təmizləyəcəyik"

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Afrin əməliyyatının "Zeytun budağı" adlandırması məsələsinə aydınlıq gətirib. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Ərdoğan bildirib ki, zeytun azadlıq müjdəçisidir: "Zeytun dinimizdə çox müqəddəsdir. Zeytun eyni zamanda azadlıq müjdəçisidir. Afrin əməliyyatı sonuncu terrorçu zərərsizləşdiriləndək davam edəcək. Bölgəmizi tamamilə terrorçulardan təmizləyəcəyik".

# "80 ölkə arasında 3-cü yerdə olmaq qürurvericidir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrədəki işgüzar səfəri davam edir. Ölkə başçısı Forumun Prezidenti ilə görüşüb, ölkəmizin Dünya İqtisadi forumu ilə səmərəli əməkdaşlığı barədə söhbət aparıblar". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Eldəniz Səlimov deyib. Onun sözlərinə görə, sayca 48-ci olan forumun əsas mövzuları beynəlxalq təhlükəsizlik, ətraf mühit və qlobal iqtisadiyyatdır: "Ümumilikdə isə hər ilin yanvarında İsveçrənin Davos şəhərində ənənəvi Dünya İqtisadi Forumunun keçirilməsi olduqca əhəmiyyətlidir. Bu forumda il ərzində dünya üçün əhəmiyyətli iqtisadi hadisələr müzakirə olunur, müxtəlif panellərdə fikir mübadilələri aparılır". Eldəniz Səlimov qeyd edib ki, həmişə ölkə başçısı Dövlət İqtisadi Forumundan uğurlu nəticələrlə qayıdır, bu səfərdə uğurlu səfər olacaqdır. Ölkəmizin inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerdə olması qürurvericidir. Bu ölkə başçısının apardığı uğurlu islahatların nəticəsində mümkün olub. Bu uğurlar bu ildə davam edəcək daha yüksək nəticələr əldə olunacaqdır.





## Sosial şəbəkə "müxalifəti" - dövlət maraqlarını fərdi maraqlarına satan qaragüruhçu toplumu

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan hakimiyyətinin, dövlətin və xalqın mənafelərinə istiqamətlənmiş məqsədyönlü siyasətinə qarşı açıq-aşkar düşməncəsinə çıxış edən bir qrup dırnaqarası müxalifətçilər, nədənsə, son dövrlərdə "aktivləşməyə" başlayıblar. Daha dəqiq desək, yalnız hər hansı bir ictimai-siyasi hadisələrdən, eləcə də, seçkilərdən uzaq olan bir zamanda uzunmüddətli yuxulara dalan "müxalifətçilər" passivlikdən sözdə "aktivləşməyə" doğru keçid edirlər. Xüsusilə, sosial şəbəkələrdə saxta profillərlə yanaşı, onların ağaları - AXCP sədri Əli Kərimli, "Milli Şura"nın üzvləri Eldəniz Quliyev, Gültəkin Hacıbəyli, hətta xarici ölkələrə qaçaraq, orada "klaviatura qəhrəmanlıqları" edən Qənimət Zahid və sairələri gah bu, gah da digər mövzularla yalnız ürək bulandırmaqla məşğuldurlar. Əlbəttə, belə olan halda, dövlətin mənafeyini müdafiə edən on minlərlə insan onların cavablarını əsaslanmış, arqumentli şəkildə verirlər.***

Misal üçün, 20 Yanvar Şəhidlərinin Anım Günü AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı və digərləri şəhidlərimizin əziz ruhlarına qarşı təhqir sayıla biləcək addımlar atdılar. Məsələ ondadır ki, həmin gündən öncə, hüquq-mühafizə orqanları müxtəlif ictimai-siyasi təşkilatlara tövsiyə etmişdi ki, ziyarətlərini xalqın Şəhidlər Xiyabanına gur axını vaxtı etməsinlər. Bu, xalqın təhlükəsizliyi üçün nəzərdə tutulmuşdu. Lakin radikallardan və dağıdıcılardan olan qaragüruhçular toplumu bu tövsiyəni bir kənara qoyub, məhz xalqın gur olan vaxtı insanlardan önə keçməyə cəhdlər göstərdilər. Üstəlik, öz nimdaş və köhnə şüarlarını çığıra-çığıra...Məgər bu faktın özü, belə deməyə əsas vermirmi ki, bütün bunlar, bilavasitə siyasi dividendlə xal qazanmaq, eyni zamanda, qəsdən qarmaqarışıqlıq yaratmağa hesablanmış addım idi?

Bütün bunların ardınca isə, yuxarıda adaları çəkilən qaragüruhçular dərhal "facebook" qarşısına keçib öz ucuz təfəkkürlərinə uyğun ittihamlarla ictimailəşdirməyə çalışırdılar. Ancaq onlara verilən hər bir cavab, necə deyərlər, tərs şillə effektini verdi və susmağa məcbur oldular. Eləcə də, Cümhuriyyət İli ilə bağlı siyasi şoumenlərin bu və ya digər şəkildə oyunbazlıqla məşğul olmaları, əslində, Azərbaycan xalqına məxsus olan bu tarixi həqiqəti öz adlarına çıxarmaq cəhdləri də cavabsız qalmadı. Dövlətini və xalqını sevən hər bir azərbaycanlı onlara sübut etdi ki, Cümhuriyyət amili beş-on nəfərə deyil, bütün xalqa aiddir və kimsə öz kefi ilə onu mənimsəyə bilməz!

Daha bir məqam isə, AXCP sədrinin müavini, Gürcüstandan qeyri-qanuni yollarla külli miqdarda pulu Azərbaycana keçirməyə cəhd edən, lakin zamanında həbs olunan Gözəl Bayramlı ilə bağlıdır. Daha dəqiqi, bu şəxs qonşu ölkədə erməni lobbisinin təlimatları əsasında fəaliyyət göstərən emissarlarla görüşüb müəyyən siyasi sifarişlər alıb. Nəticədə, məhkəmə ona 3 il həbs cəzası kəsib. İndi bu amil üzərində az qala üzlərini cırıb, gözlərini bərəldib, haray-şivən qoparan dırnaqarası müxalifətçilər hakimiyyəti günahlandırır, guya bu həbsin "siyasi motiv" olduğunu yazırlar. Amma fakt budur ki, ortada heç bir siyasi motiv yoxdur və cinayətin sübutu mövcuddur. Həttა sosial şəbəkələrdə qaragüruhçulara sual verilib ki, məgər hər hansı partiyada fəaliyyət göstərən, ancaq cinayət törədərək həbs olunanlarmı "siyasi məhbus" olurlar? Axı siyasi fəaliyyəti olmadan cinayət törədənlər də var və Azərbaycan qanunları beləlderinin hər birinə şamildir!

Beləliklə, fakt budur ki, sosial şəbəkələrdə "müxalifətçilik" edənlər, özlərini "lider" adlandıranlar bu dövlətə və bu millətə qarşı ermənilər qədər düşmən kəsilmiş şəxslərdirlər. Çünki bu gün işğalçı erməni rəhbərliyi Azərbaycana nə arzu edirsə, bunlar da eyni mövqedən çıxış edirlər. Bu səbəbdən, beləələri zamanında susdurulmalı və qaragüruhçular yerlərində otuzdurulmalıdırlar. Bunu isə xalq edir, dövlətini, millətini, dövlətçilik maraqlarını sevən və xalq-iqtidar birliyinə dəstək olan böyük Azərbaycan xalqı!

# Sahibkarlara göstərilən xidmətlə bağlı sorğunun nəticələri açıqlanıb

*Dünən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və "ELS-Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyi birgə mətbuat konfransı keçiriblər.*



Konfransda Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində komitə tərəfindən görülmüş işlər açıqlanıb, həmçinin, komitə tərəfindən sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin, o cümlədən, iş adamlarının komitənin fəaliyyətinə münasibətini öyrənmək məqsədi ilə "ELS-Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyi tərəfindən keçirilmiş rəy sorğusunun nəticələri açıqlanıb.

Komitənin İnformasiya təminatı və elektron idarəetmə şöbəsinin müdiri Fazil Talıblı komitə tərəfindən açıq hökumətin təşviqi, ictimaiyyətlə əlaqələr, elektron hökumət quruculuğu istiqamətlərində aparılan islahatlar və görülmüş işlər barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, şəffaflığın artırılması və onlayn resursların məzmununun gücləndirilməsi məqsədilə komitənin məzmun və dizayn baxımından təkmilləşdirilmiş yeni saytı istifadəyə verilib, elektron xidmətlərin, informasiya ehtiyatlarının sayının və funksionallığının artırılması istiqamətində geniş işlər aparılıb.

"ELS - Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri İradə Yaqubova komitə tərəfindən sahibkarlara göstərilən xidmətlərin səviyyəsinin öyrənilməsi ilə bağlı aparılmış sorğunun nəticələrini açıqlayıb.

Sorğu son 5 il ərzində komitəyə sənədlərin alınması üçün müraciət edənlər arasında aparılıb və 103 sahibkarlıq subyektini əhatə edib. Rəyi soruşulanların 93,2%-i son 5 ildə sahibkarlıq fəaliyyətini icra etmək üçün tələb olunan sənədlərin alınması üçün komitəyə müraciət edənlərdir. Onlar texniki şərtlərin dövlət qeydiyyatına alınması, ölçmə vasitələrinin tipinin təsdiq edilməsi, lisenziya tələb olunan fəaliyyət sahələrinə rəylərin verilməsi, əmtəə nişanı, coğrafi göstəricilərin qeydiyyata alınması və sairə xidmətlərindən istifadə ediblər. Rəyi soruşulanlar sənədlərin dəqiq və düzgün tərtib edilməsində komitənin müvafiq xidmətlərinin əməkdaşları tərəfindən köməkliyini, müəyyən edilmiş iradların aradan qaldırılmasına qısa müddət verilərək, bunun üçün yenidən müraciət etmək lazım olmadığını qeyd edərək, lazımi sənədləşdirməni problemsiz həyata keçirdiklərini bildirib.

**ZÜMRÜD**

# "Fokus" xəbər agentliyi Azərbaycan və Bolqarıstan arasında turizm potensialından yazıb




Bolqarıstanın nüfuzlu "Fokus" xəbər agentliyi Azərbaycan və Bolqarıstan arasında inkişaf edən turizm əlaqələrindən yazıb. Ekspert Yordan Nikolovun müsahibəsinə nəzər yetirilərək bildirilib ki, iki ölkə prezidentləri İlham Əliyev və Rumen Radevin dəstəyi və səyləri nəticəsində bu əlaqələr yeni müstəviyə çıxıb.

Məqalədə bildirilir ki, Bolqarıstanın Baş naziri Boyko Borisovun Azərbaycana səfəri bu əlaqələrin daha da sıx əməkdaşlıq şəraiti, möhkəmlənməsi üçün mühüm əhəmiyyət kəsb edib. Azərbaycan və Avropalı turistlər üçün çox böyük bir fürsət yaranıb. Yanvarın 16-da Bakı-Sofiya-Bakı aviareysinin açılması Avropa İttifaqı ilə Azərbaycan arasında mədəniyyət, təhsil, həm də turizm sahəsində əlaqələri genişləndirib. Azərbaycan üçün Avropaya açılan yeni pəncərə "Buta Airways" şirkəti vasitəsilə daha da səmərəli və əlverişli olub. Bununla da azərbaycanlılar Sofiyaya, oradan isə bütün Avropaya rahatlıqla səfər etmək imkanı əldə ediblər. Eyni zamanda, Sofiyadan Azərbaycana gələn turistlər üçün də yeni uçuş istiqaməti daha əlverişli olacaqdır.

# Prezident İlham Əliyevin Davosdakı çıxışı Azərbaycanla bağlı qərəzli məlumatlar yayanlara tutarlı cavab oldu



Bu gün bütün dünyanın diqqəti Davosa yönəlib. Artıq 48-ci dəfədir ki, keçirilən Davos Dünya İqtisadi Forumunda bir çox mühüm məsələlər müzakirə edilir. Ümumiyyətlə, bu Forum ölkəmiz üçün xüsusi önəm kəsb edir. Çünki Azərbaycan da bu beynəlxalq tədbirdə təmsil olunur. Prezident İlham Əliyev Forum çərçivəsində mühüm görüşlər keçirir, qarşılıqlı faydalı müzakirələr aparılır. Bu görüşlər zamanı ölkəmizin gələcək inkişafı, yeni əməkdaşlıq imkanları ilə bağlı mühüm razılaşmalar əldə edilir. AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə deyib ki, Davos Forumu çərçivəsində dövlətimizin başçısının "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda səsləndirdiyi fikirləri, "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiyada iştirakını xüsusi olaraq vurğulamaq lazımdır. Bu Forum bizim üçün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə daha doğru şəkildə çatdırılması baxımından böyük önəm daşıyır. "Ölkəmiz uzun illərdir ki, Davos İqtisadi Forumu ilə uğurlu əməkdaşlıq edir. Bu əməkdaşlıq bir sıra sahələri əhatə edir. Azərbaycan həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində regionda və dünyada sülhün və təhlükəsizliyin təminatına mühüm töhfələr verir. Bununla yanaşı, ölkəmiz öz iqtisadi inkişafını təmin etməklə yanaşı, regional və qlobal inkişafa da dəstək verir. Bu reallığı Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq layihələr də təsdiq edir. Qeyd etdiklərimizin məntiqi nəticəsi olaraq Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı 2017-ci ildə rəqabətqabiliyyətliliyinə görə 2 pillə irəliləyib və dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Əlbəttə, bu amil bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır", - deyə o qeyd edib.

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, hazırda Azərbaycanın müstəqil siyasət yürütməsi bir sıra dairələrdə qısqanclıq yaradır: "Sözsüz ki, Qərbdə bir sıra qüvvələr ölkəmizin artan nüfuzuna, uğurlu xarici siyasət kursuna mane olmağa cəhdlər göstərirlər, əsası olmayan dezinformasiyalar yayırlar. Lakin bütün bunlar reallıqlara söykənmir, qərəzli və qeyri-obyektiv xarakter daşıyır. Davosda Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" adlı interaktiv iclasında aparıcının suallarını cavablandıran Prezident İlham Əliyev bu cür dairələrin əsassız iddialarını ifşa etdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda bütün fundamental azadlıqlar, mətbuat azadlığı təmin edilir. Mətbuat tamamilə azaddır. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. İnternetin azad, senzuranın olmadığı və əhalinin mütləq əksəriyyətinin internet istifadəçisi olduğu halda mətbuat azadlığının məhdudlaşdırılması haqqında danışmaq əsassızdır."

"İki sahil" qəzetinin baş redaktoru bu cür qərəzli yanaşmaları siyasi motivlərlə əlaqələndirib: "Əgər sənin ölkənin milli maraqları bəzi dairələrin maraqları ilə toqquşursa, o zaman haqsız tənqidlərə, təzyiqlərə məruz qalırsan. Guya Azərbaycanda söz azadlığı, fikir sərbəstliyi yoxdur. Bunların hamısı cəfəngiyyatdır. Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycanda bütün fundamental azadlıqlar təmin olunur və dövlət hər bir kəndə genişzolaqlı internetin çəkilməsi ilə bağlı böyük proqram həyata keçirir. Azərbaycanda söz və mətbuat azadlığının olmaması barədə uydurmalar Qərbdəki müəyyən siyasi qrupların fəaliyyətinin məhsuludur. Hesab edirəm ki, dövlətimizin başçısının dərin məzmunlu, faktlara əsaslanan bu fikirləri Azərbaycanla bağlı qərəzli məlumatlar yayanlara tutarlı cavab oldu".

# Mekan İşanquliyev: "Türkmənistanla Azərbaycanın əməkdaşlıq planları böyükdür"



Bu il Türkmənistanla Azərbaycanın əməkdaşlıq üzrə böyük planları var. Biz bütün sahələrdə qardaşlıq münasibətlərimizin daha çox inkişaf etməsinə yönəlmiş birgə layihələr həyata keçirəcəyik. Bu sözləri Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşanquliyev yanvarın 24-də keçirilən mətbuat konfransında AZƏRTAC-ın müxbirinin sualını cavablandırarkən söyləyib. Türkmənistanla Azərbaycan arasında qarşılıqlı münasibətlər çox yüksək səviyyədədir və yüksələn xətt üzrə inkişaf edir. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri və həmin səfər çərçivəsində imzalanmış böyük sənədlər paketi bu inkişaf üçün gözəl stimuldur. Səfir nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərinə xüsusi toxunaraq, bu sahənin böyük perspektivi olduğunu vurğulayıb. O deyib: "Yaxın vaxtlarda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Ticarət Limanı işə salınacaq. Bununla əlaqədar, yükdaşımalarının həcmi və onların coğrafiyası dəfələrlə genişlənəcək. Biz Asiya ilə Avropa arasında iqtisadi əlaqələri sahmana salmaq üçün nəqliyyat dəhlizlərini birgə səylərlə inkişaf etdiririk".

## Sinoptiklər xəbərdarlıq edir: Qar yağacaq, yollar buz bağlayacaq

Sinoptiklər hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, yanvarın 25-i axşam şimal və qərb rayonlarından başlayaraq yanvarın 28-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-7° aşağı enəcək. Dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

# "İrəliləyişin olmasını arzu edirik, amma buna çox da inanmırıq"

*Azər Həsrət: "Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarından çəkilməli olacaq"*

***- Azər müəllim, Polşanın Krakov şəhərində keçirilmiş Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün, ümumilikdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hansısa ümidverici imkanlar yaradacağını demək olarmı?***

- Təbii ki, belə görüşlər və danışıqlar hər iki tərəfin insanlarında müəyyən ümidlərə səbəb olur. Çünki işğalçı Ermənistanın xalqı onlara aid olmayan torpaqların yükünü çəkməkdə yorulub və istərdilər ki, münaqişə tezliklə həll edilsin. Azərbaycan xalqı da, nəhayət ki, ədalətin zəfər çalmasını və insanların öz doğma yurdlarına dönməsini arzu edir. O baxımdan, belə görüşlər insanlarda az da olsa, ümidə səbəb olur. Amma gerçəkçi olsaq, deyə bilərik ki, elə də ciddi ümidlənmək doğru olmazdı.

***- ATƏT-in Minsk Qrupu həmsədrləri münaqişənin həlli ilə bağlı intensiv görüşlər və danışıqlar aparırlar. Bu tələskənlik nə ilə bağlıdır?***



**Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir**

- Bu qrup ötən illər ərzində heç nəyə nail ola bilməyib. Bəlkə də nail olmaq istəməyib. Görünür, indi özləri də anlayırlar ki, belə bir münaqişəni bu qədər uzun müddət ərzində həll edə bilməmək onların da nüfuzuna ciddi zərbə vurur. O baxımdan, ən azı görüntü üçün belə intensiv görüşlər keçirir və özlərini bir qədər də tələsən kimi göstərirlər. Lakin onların məsələni kökündən və ədalətli həll etmək istəyinə hələ də inanmıram.

***- Aprel ayında Ermənistanda seçkilər keçiriləcək. Bu baxımdan, nə dərəcədə əminliklə demək olar ki, bu il Dağlıq Qarabağ münaqişəsinin həllində bir irəliləyiş ola biləcək?***

- İrəliləyişin olmasını arzu edirik, amma buna çox da inanmırıq. Çünki Azərbaycan münaqişəni mümkün qədər tez və ədalətli həll etməyə hazırdır, Ermənistansa yox. Münaqişə həll edilərsə, Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarından çəkilməli olacaq. Bu isə, rəsmi Yerevana sərf etmir. Ona görə də, məsələ çox mürəkkəb bir mərhələdə ilişib qalıb. Amma Azərbaycanın durmadan artan gücü Ermənistan ictimai rəyinə öz təsirini göstərməkdədir. Yəni ağlı başında olan ermənilər anlayırlar ki, münaqişə ədalətli şəkildə həll edilməsə, onların xoşbəxt və firavan yaşaması mümkün olmayacaq. Ermənilərin xoşbəxtliyi Azərbaycana bağlıdır. Bütün bunlarla bərabər, digər faktorları da nəzərə alanda, həlelik, irəliləyiş gözləmək doğru olmazdı.

**GÜLYANƏ**

# "Peşə təhsilinin inkişafında ciddi dönüş yaranacaq"



"Peşə təhsilinin inkişafı ilə bağlı müvafiq dövlət proqramının həyata keçirilməsi bu sahədə ciddi dönüş yaradacaq". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Kamilə Əliyeva deyib. Bu sahədə çalışan insanların sosial müdafiəsinin diqqət mərkəzində olduğunu deyən deputat söyləyib ki, ümumiyyətlə, ölkəmizdə peşə təhsilinin səviyyəsinin yüksəldilməsi gündəmdə olan əsas məsələlərdən biridir. Bir neçə gün öncə Azərbaycan Prezidenti tərəfindən "Dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin dərs yükünün və əmək haqlarının, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin isə əmək haqlarının artırılması haqqında" Sərəncamı xüsusi vurğuyalyan K. Əliyeva qeyd edib ki, sərəncama əsasən dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılacaq: "Məqsəd bu sahədə çalışan insanların maddi rifahını yaxşılaşdırmaqdır. Eyni zamanda, bu qərar peşə təhsilində çalışan insanların fəaliyyətini və gənclərdə bu sahəyə marağı daha da stimullaşdıracaq".

## Azərbaycan İstanbulda turizm sərgisində təmsil olunacaq

Yanvarın 25-dən 28-dək Türkiyənin İstanbul şəhərində "EMİTT 2018" (The East Mediterranean İnternational Travel and Tourism - Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisi) turizm sərgisi keçiriləcək. Ölkəmizi sərgidə Mədəniyyət və Turizm Nazirliyinin turizm şöbəsinin müdiri Aydın İsmiyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, ölkəmizdən sərgiyə 20-yə yaxın turizm şirkəti və mehmanxana qatılacaq. Respublikamızın turizm imkanları Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 70 kvadratmetr sahədə qurulan milli stenddə nümayiş olunacaq. Stendimizdə monitorlar vasitəsilə Azərbaycanın tarixi, mədəniyyəti və müasir inkişafından bəhs edən tanıtım filmləri göstəriləcək, ziyarətçilərə reklam-çap məhsulları paylanılaraq, ölkəmizin turizm imkanları haqqında ətraflı məlumat veriləcək. Sərgi çərçivəsində işgüzar görüşlərin keçirilməsi də nəzərdə tutulub.

# Muxtar respublikada müasir standartların tətbiqi diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ötən il istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işini diqqətdə saxlayıb. Bu dövrdə məhsulların 1559 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilib, sertifikatlaşdırmaya dair elektron xidmət vasitəsilə daxil olan 438 müraciət icra olunub. Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 259 qida istehsalı müəssisəsinə aylıq dövrlər üzrə maarifləndirmə xarakterli baxış keçirilib, aşkar olunan çatışmazlıqlar aradan qaldırılıb. Təsərrüfat subyektlərindən götürülən məhsul nümunələrinin 1392 halda laboratoriya analizləri aparılıb və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilib. Meyvə-tərəvəz və onlardan hazırlanan məhsulların isə 82 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılıb, 160 laboratoriya analizləri aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il noyabrın 18-də imzaladığı Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində aidiyyəti təşkilatların nümayəndələri və arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilib, 27 təsərrüfat subyektindən götürülən bal nümunələrinin laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilib. Arıçılıq məhsullarının istehsalı üçün bir əmtəə nişanı qeydiyyata alınaraq ekspertizasına başlanılıb və bal məhsullarının 3 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılıb.

Xarici bazarlara çıxış imkanına malik məhsulların ixracının dəstəklənməsi çərçivəsində müvafiq işçi qrupu müəssisələrdə olub və məhsulların ixrac ediləcək ölkələrə uyğun markalanması üçün tədbirlər görülüb. İdxal mallarının etiketlərində və adlarında istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət edilib, məhsulların üzərinə Azərbaycan dilində zəruri məlumatların vurulması təmin olunub. Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 118 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinq aparılıb. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların markalanmasına kömək göstərilməsi üçün yeni etiket layihələrinin hazırlanması və ailə təsərrüfatlarına çatdırılması təmin edilib. Məhsulların emalı və qablaşdırılması üzrə Şərur rayonunda 95 ailə təsərrüfatı nümayəndəsinin iştirakı ilə tədbir keçirilib.

# Bakı Ali Neft Məktəbi "Petronas" şirkəti ilə əməkdaşlığa başlayır



Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov Malayziyanın "Petronas" şirkətinin Azərbaycan nümayəndəliyinin biznesin inkişafı, planlama və risklərin idarə edilməsinin rəhbəri, direktorun müavini Rəşad Məmmədov və korporativ əlaqələr şöbəsinin əməkdaşı Aysel Allahverdiyeva ilə görüşüb.

BANM-dən AZƏRTAC-a bildirilib ki, görüşdə rektor bu ali məktəbin fəaliyyəti, tələbələrin yüksək statistik göstəriciləri barədə məlumat verib. O, həmçinin BANM-in neft sektorunda əlaqə yaratdığı şirkətlər və onlarla əməkdaşlığın istiqamətlərindən danışıb. "Petronas" şirkətinin BANM-in tələbələri ilə maraqlandığını vurğulayan R.Məmmədov iki müəssisə arasında əməkdaşlığın zəruriliyini qeyd edib. O deyib: "Niyyətimiz BANM-in tələbələrini "Bu günün öyrənənləri, sabahın liderləri" şüarı altında "Petronas" Təhsil Sponsorluq Proqramına cəlb etməkdir. Bu proqram vasitəsilə BANM-in bir neçə tələbəsi Malayziyada Petronas Texniki Universitetində dördillik bakalavriat səviyyəsində təhsili alacaq. Kimya mühəndisliyi, neft-qaz mühəndisliyi və neft-qaz geologiyası ixtisasları üzrə təhsil almaq şansı əldə edəcək tələbələr əvvəlcədən müəyyənləşmiş xüsusi kriteriyalar əsasında "Petronas Azərbaycan" şirkəti tərəfindən seçiləcəklər. Görüşdə, həmçinin əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# "Zeytun Budağı" əməliyyatı aprel döyüşlərinin təkrarlanması üçün presedent ola bilər

*Türkiyə hökuməti tərəfindən bəyan edildiyi kimi, Türkiyə Silahlı Qüvvələri tərəfindən həyata keçirilən "Zeytun Budağı" əməliyyatının məqsədi Türkiyənin sərhədlərinin təhlükəsizliyini təmin etmək, bölgədəki terror təhlükəsini zərərsizləşdirmək və ərazidə yaşayan mülki insanları terror hücumları və təhdidlərindən qorumaq məqsədi daşıyır. Bir sözlə, əməliyyatın məqsədi sərhəd təhlükəsizliyini təmin etmək və terrorçuları məhv etməkdir. Türkiyə Ordusu şənbə günündən başlayaraq Suriyanın şimalında, Afrin məntəqəsində "Zeytun Budağı" adlı hərbi əməliyyata artıq başlayıb və bu hərbi əməliyyatda məqsəd Suriyanın şimalını ABŞ tərəfindən silahlandırılan və Türkiyənin təhlükəsizliyini təhdid edən kürd yaraqlıları və "İŞİD" terrorçularından təmizləmək və bölgədə təhlükəsizliyi möhkəmləndirməkdən ibarətdir. Artıq bəzi strateji mövqelər terrorçulardan azad edilib.*



## Dünya dövlətləri və beynəlxalq qurumlar Afrindəki əməliyyatlardan narahatdır

Azərbaycan terrorizmdən əziyyət çəkmiş dövlət kimi, terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir və terrorizmə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərini dəstəkləyir. Biz hesab edirik ki, beynəlxalq və regional sülh və təhlükəsizliyin təmin edilməsi üçün terror təhlükəsinin kökünün kəsilməsi, xüsusilə, vacibdir.

Avropa İttifaqı Suriyanın Afrin bölgəsində Türkiyənin həyata keçirdiyi "Zeytun Budağı" əməliyyatına münasibət bildirib. Xarici mediada yayılan məlumata görə, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini jurnalistlərə açıqlamasında "Zeytun Budağı" əməliyyatından narahatlıq keçirdiklərini ifadə edib. Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsi Türkiyənin Suriyanın şimalında həyata keçirdiyi hərbi əməliyyatlara münasibət bildirərkən, mülki əhalinin təhlükəsizliyinə diqqət göstərilməsini istəyib. Türkiyənin Suriyanın şimalındakı hərbi əməliyyatının regionda gərginliyi daha da artıracağını iddia edən Moqerini deyib ki, "Mülki əhali hərbi əməliyyatdan zərər çəkməməlidir." Onun sözlərinə görə, bu məsələ çox həssas və bölgə üçün vacib məqamlardandır. Narahat olan Aİ rəsmisi bu mövzu ilə bağlı Türkiyə rəsmiləri ilə görüşməyi planlaşdırır.

Suriya Xarici İşlər Nazirliyi, bir bəyanat yayaraq, Türkiyənin hərbi əməliyyatını qınayıb. İranın Xarici İşlər Nazirliyi isə Türkiyənin Suriyanın Afrin bölgəsində "Zeytun Budağı" adlı hərbi əməliyyata başlamasına dair açıqlamasında Türkiyə ilə Suriya sərhədində böhranın dərinləşməsini istəmədiyini və Suriyanın qonşu dövlətlərlə yaranan problemlərinin danışıqlar yolu ilə həll edilməsinə tərəfdar olduğunu bəyan edir. Həmçinin, İran Suriyanın ərazi bütövlüyünə hörmətlə yanaşılmasını istəyir və problemin Astana danışıqları çərçivəsində aradan qaldırılmasına çalışır. Rusiya ordu komandanlığı isə Türkiyənin əməliyyat keçirdiyi Suriyanın Afrin rayonundakı hərbçilərin təhlükəsizliyini təmin etmək və mümkün təxribatların qarşısının alınması üçün tədbirlər görüb. Komandanlığın əmri ilə Rusiya hərbçiləri Afrindən "Təl Rifat" təhlükəsizlik zonasındakı Təl Əcər rayonuna dislokasiya edilib. BMT-nin Təhlükəsizlik Şurası isə Türkiyənin Suriya sərhədlərində başlatdığı hərbi əməliyyata görə toplanır. Toplantı keçirilməsini Fransa tələb edib.



Cəmi bir neçə gündür davam edən döyüşdə Türkiyə öz gücünü və hərbi qüdrətini dünya dövlətlərinə sübut etdi və bir tərəfdən, terrorçuluğa əks-mövqe nümayiş etdirib, digər tərəfdən, onu dəstəkləyənləri təlaşlandırdı. Türkiyə hökuməti dünya dövlətlərinin mövqeyindən asılı olmayaraq öz ərazilərini, sərhədlərini terror təhlükəsindən xilas etmək qərarında qəti olduğunu və terrorçuluqla mübarizə əzmində olduğunu təsdiq etdi. Türkiyə tərəfi öz qanunlarının, öz ərazi bütövlüyünün, antiterror əməliyyatlarının vacibliyinin bütün beynəlxalq qurumların, dünya dövlətlərinin mövqeyindən daha üstün olduğunu nümayiş etdirdi. Hətta nüfuzlu dünya dövlətlərinin bu antiterror əməliyyatlarına münasibəti fərqli olsa da, Türkiyənin mövqeyi dəyişmədi və bundan sonra da, bir dövlət olaraq, gələcəkdə də ərazi bütövlüyünü qorumaq, terrorçuluqla mübarizə aparmaq iqtidarında olduğunu əyani şəkildə isbatladı. Türkiyənin bu mövqeyindən narahatlıq keçirən bir çox ölkələr müxtəlif münasibət sərgiləsələr də, heç bir maneçilik törədə bilmədilər və türk qoşunları hazırda terrorçular üzərində dalbadal qələbələr əldə edir. Hətta Türkiyə təyyarəçisinin 20 metrə qədər məsafədə hədəfə yaxınlaşaraq, onu ilk zərbədə məhv etməsi dünya ictimaiyyətinə sensasion xəbər kimi yayıldı. Türk əsgərinin şücaəti, ordunun hərbi qüdrəti qısa zamanda, bütün dünyaya yayıldı. İndi başda ABŞ olmaqla, bütün nüfuzlu dünya dövlətləri Türkiyənin hərbi potensialı ilə hesablaşmaq məcburiyyətində olduqlarını anladılar. Eyni zamanda, bu dövlətin sərhədlərinin qorunması, ərazi bütövlüyü, antiterror siyasətinin nə dərəcədə aktual olduğunun artıq bütün dünya dövlətləri fərqindədir. Onun da, fərqindədirlər ki, Türkiyə hökuməti heç bir dünya gücləri qarşısında sarsıla bilməz və yetərli iqtisadi və hərbi gücə malikdir. Bu mənada, ölkəyə təzyiqlər edilməsinin mümkünsüzlüyü hamı tərəfindən qəbul olundu.

Bir vaxtlar Türkiyənin terrorçulara qarşı sərt reaksiyasına, terrorizmin fəsadlarına qarşı narahatlığına məhəl qoymayan beynəlxalq təşkilatlar, onların səlahiyyətli nümayəndələri indi bu hərbi nailiyyətlərdən sonra təlaş keçirir və danışıqlar barədə düşünür, bəyanatlar verirlər. Maraqlıdır, türk qoşunlarının Suriyadakı terrorçular üzərində davamlı qələbəsi niyə bəzi qurumları narahat edir? Bəs bu vaxta kimi niyə narahat etmirdi? Saysız-hesabsız günahsız insan tələfatına səbəb olan terrorçuların məhv edilməsi niyə narahatlıq doğurur? Əgər insan tələfatı bəzi qurumları narahat edirsə, niyə bu vaxta qədər tələf olan günahsızların taleyi onları narahat etmədi, amma terrorçu cinayətkarların taleyi narahat edəsi oldu? Görünür, yalnız üzdə görünən terrorçular heç də tək deyilmiş və erməni lobbisi kimi digər separatçı qruplaşmalar tərəfindən dəstəklənilir. Hətta bəzi dövlətlər səviyyəsində himayədarlıq edilir, müdafiə olunur. Əgər Türkiyə terrorçulara bu tutarlı cavabı verməsəydi, hələ də bəzi qurumlar hələ də olduğu kimi susqunluq və etinasız yanaşma nümayiş etdirəcəkdilər. Amma, vacib olan budur ki, türk ordusu bir sıra təşkilatların, separatçılara dəstək olan dövlətlərin kürkünə birə saldı və terrorizmin qarşısına sədd çəkməklə, əslində, onların özlərini də hədələdi və yuxularını ərşə çəkdi.

## Azərbaycanın ərazi bütövlüyü təmin olunmazsa, işğalçı rejimi və terrorçuları analoji sonluq gözləyir

Maraqlıdır, analoji addımı Azərbaycan atarsa, dünya dövlətləri və beynəlxalq qurumlar ölkəmizə qarşı hansı münasibəti sərgiləyə bilərlər? Məgər Azərbaycan torpağında Dağlıq Qarabağda terrorçu erməni separatçıları yoxdurmu? Bu erməni separatçıları da Azərbaycan sərhədlərini qanunsuz pozanlardır. Onlara qarşı da Azərbaycanın antiterror əməliyyatlar aparmaq hüququ var. Necə ki, Türkiyə. Əslində, Türkiyənin bu antiterror əməliyyatlara start verməsi, terrorçulardan sərhədlərini və torpaqlarını təmizləməsi Azərbaycan üçün bir presedent ola bilər və ölkəmiz, aprel hadisələrində olduğu kimi, yenə də erməni separatçılarını darmadağın edər. Buna bizim hərbi qüdrətimiz çatır və bu, dünya ictimaiyyəti üçün sirr deyil.

Hadisələr təsdiq edir ki, indi olduğu kimi, aprel hadisələrində də bir sıra qurumlar, ələlxüsus, ermənipərəst təşkilatlar, qruplar, dövlətlər, ikili standart siyasəti yürüdənlər də bərk narahat olmuşdular və Azərbaycanın dərhal bu əməliyyatları dayandırmasına maraqlı idilər. Hətta ölkəmizə müxtəlif güzəştlər barədə razılıqlar olundu, məsələnin ən tez zamanda sülh yolu ilə həllinə dair vədlər verildi. Azərbaycan tərəfi, daim sülh və əmin-amanlıq tərəfdarı olduğu üçün danışıqlara üstünlük verdi və hərbi əməliyyatları dayandırıldı. Amma söz verən, sülh yolu ilə həlli vəd edən təşkilatlar, həmişə olduğu kimi, vədini yerinə yetirməkdə qərarsızdır, yaxud ən azından gecikir. Belə olan təqdirdə, Azərbaycan öz əzəli və əbədi torpaqlarını işğalçılardan, terrorçulardan təmizləmək üçün antiterror əməliyyatlarına yenidən başlaya və torpaqlarını son qarışına qədər təmizləyə bilər. Hər bir qarış torpaq geri qaytarıla və işğalçılar cəzalandırıla bilər. Buna ölkəmizin iqtisadi, hərbi qürdəti yetər və Azərbaycan öz ərazi bütövlüyünü qorumaq və bərpa etmək iqtidarındadır.

Azərbaycanın uzun illərdir terrorizmdən əziyyət çəkmiş dövlət olduğunu bütün dünya ictimaiyyəti bilir. Dünya ictimaiyyəti, onu da bilir ki, bu səbəbdən, Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir, sülh və təhlükəsizliyin təmin edilməsi üçün terror təhlükəsinin kökünün kəsilməsinin tərəfdarıdır. Azərbaycan terrorizmə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərini dəstəkləyir və Türkiyənin mövqeyini daim müdafiə edir. Bu baxımdan, istər terrorçu qruplaşmalar, istərsə də onları dəstəkləyən, müdafiə edən qurumlar, hətta dövlətlər bilməlidirlər ki, aprel döyüşlərinin təkrarlanması üçün "Zeytun Budağı" əməliyyatı presedent ola bilər və əgər Azərbaycanın ərazi bütövlüyü təmin olunmazsa analoji reallıqla qarşılaşacaqlar.

**İnam HACIYEV**

# Cəmil Həsənli poçt göyərçini olmaqdan imtina etmək qərarındadır

***Bu gün Azərbaycanda dağıdıcı müxalifət üçün fəaliyyət istiqaməti yalnız mənafe və şəxsi maraqlardır. AXCP sədri Əli Kərimli və "Milli Şura" sədri Cəmil Həsənli müxalifətçiliyi şəxsi münasibətlə, şəxsi mövqe ilə qarışdırıblar. Əlxüsus, Ə.Kərimli müxalifətə sıravi cəbhəçilərə maraqları çərçivəsində yanaşır və onun üçün lazımsız olanlar heç bir maraq kəsb etmir. Ümumiyyətlə, siyasəti şəxsi münasibətlər səviyyəsinə, maraqlar prizmasına endirmək səhvdir və bu fəaliyyət heç bir uğurlu nəticə vəd edə bilməz.***



Dağıdıcı müxalifətin, elə bil, dünya təcrübəsindən ya xəbəri yoxdur, ya da bu təcrübə onlar üçün əlçatmazdır. Normal, qəbul edilmiş siyasi fəaliyyət sərgiləmək, mübarizəyə sivil qaydada qatılmaq, ictimaiyyətin və dövlətin maraqlarından çıxış etmək üçün müxalifətin ciddi kadr potensialı yoxdur. Halbuki iqtidara iddialı olan siyasi qüvvənin iqtidarı təmsil edə biləcək ciddi kadr potensialı olmalıdır. Siyasi ekspertlər və əhalinin mütləq əksəriyyəti, ilk baxışda iqtidara iddialı qüvvələrin ciddi qüvvə olmadığını gözəl anlayır.

Müxalifət düşərgəsinin fəaliyyəti xaotik, dağınıq şəkildədir və heç bir istiqamətdə normal və sivil fəaliyyət gözə dəymir. Nəinki sivil qaydada mübarizə aparmaq üçün, ümumiyyətlə, müxalifət öz anormal fəaliyyətini belə qurmağa maraq göstərir. AXCP sədrinin daim ona dəstək verəcək birinə ehtiyacı var və bu səbəbdən C.Həsənli kimi tez-tez öz mövqeyini, yolunu, əqidəsini dəyişə bilən və özü kimi birindən istifadə etməsi başa düşüləndir.

### Dəyərlər, münasibətlər və tərəfdaşlıq müxalifət üçün heç də maraqlı deyil

Eyni xislətdə, eyni simada olan bu iki müxalifətçi özlərini eyni ampulada çox rahat hiss edirlər. Ancaq Həsənli bunun fərqindədir ki, mənəvi dəyərlər, dostluq münasibətləri, ideya tərəfdaşlığı və mövqe kimi prinsiplər Ə.Kərimli üçün heç də maraqlı deyil və istifadəyə yararsız olduğu andan etibarən Kərimli onun özünü də, guya ki, eyni rolu bölüşdürdüyü bu səhnədən uzaqlaşdıracaq. Həsənlinin fəaliyyətini də, onun şəxsi maraqlarına xidmətini də, hətta özünü də unudacaq. AXCP sədrinin maraqlarını Həsənli ilə bölüşmək fikri olmayıb, heç olmayacaq da. Necə ki, hər zaman şuranın idarəetmə sükanını da öz əlində saxlayıb, qərar və tapşırıqları özü verib, siyasi dividendi də yalnız özü üçün nəzərdə tutub, bundan sonra da belə olacaq.

Ola bilsin ki, bu vaxta qədər bunların fərqində olmadığı üçün, yaxud özünü görməzliyə vurduğu üçün C.Həsənli Ə.Kərimlinin senarisinə uyğun fəalyyət göstərib. Həsənli bu vaxta qədər çox yaxşı başa düşürdü ki, onun "Milli Şura"ya sədrliyi formal xarakter daşıyır. "Şura" sədri qərarların qəbulunda, icrasında, tapşırıqların verilməsində söz sahibi olmadığını da görməyə bilməzdi. Bu qərarların, tapşırıqların Kərimli tərəfindən verildiyini və idarəetmənin AXCP sədrinin əlində olduğunu da görürdü. Belə olan halda, səlahiyyətləri olmayan "şura" sədrliyinin çox uzun sürməyəcəyini də başa düşürdü.

### Cəmil Həsənli ən yaxın zamanda ofsaytda qalacağını bilir

Möcüzələrin olacağını, daha doğrusu, nə vaxtsa söz, səlahiyyət sahibi olacağını güman edən Həsənli, artıq qəbul edir ki, bu, mümkünsüzdür və Kərimli ona heç bir səlahiyyət vermək fikrində deyil. Kərimli Həsənlini tez-tez xaricə göndərmək, xəbər, daha doğrusu, dezinformasiyalar uçurmaq, xarici havadarlarından xəyanətkar xidmətləri müqabilində alacaqları vəsaitləri gətirmək üçün "şura"da saxlayır. Bu vəzifəni E.Quliyevə, yaxud G.Hacıbəyliyə həvalə edə bilməyən AXCP sədri üçün "şura" sədri, məhz buna görə maraqlıdır. Xarici qüvvələrin ayırdığı vəsaitlərin Qənimət Zahid kimi birinin əlinə keçməsindən, daha doğrusu, bu vəsaitləri sonsuza qədər itirməsindən ehtiyatlanan Kərimli üçün Həsənli hələ ki istifadəyə yararlı hesab olunur. Əks halda, yəni bu funksiyanı yerinə yetirə bilən bir nəfər tapılarsa, Həsənli ən yaxın zamanda ofsaytda qalacağını bilir. Bir sözlə, "şura" sədri artıq başa düşür ki, onun "Milli Şura"da qalması, öz-özünü aldatmaqdan başqa bir şey deyil. Söz sahibi olduğu kimi, seçkilərdə də Ə.Kərimli "Milli Şura"nın "vahid namizəd" kimi özü iştirak edəcək. Ona görə də, Həsənli oyuncaq kimi Kərimlinin marioneti rolunu oynamaqdan, onun xarici havadarlarına xəbər aparıb-gətirən poçt göyərçini olmaqdan imtina etmək istəyindədir.

C.Həsənli indi "şura"dan getmək qərarındadır və belə oyuncaq sədrliyə son qoymaq niyyəti var. Onsuz da, mövqeyini və əqidəsini çox asanlıqla dəyişmək "bacarığı-na" malik olan Həsənli üçün bu elə də çətin məsələ deyil. Yaxud öz yolunu dəyişmək, əqidəsindən, məsləkindən dönmək "şura" sədri üçün adi haldır. Bir vaxtlar Ə.Kərimlinin etirazlarına baxmayaraq, parlamentdə təmsil olunan və öz mandatını bir anda satan deputatın qondarma, səlahiyyətsiz "şura" sədrliyi kürsüsünü başqa bir məqama dəyişməsi, satması nə çətin məsələ ola bilər ki? Bu onun üçün çox asandır və özü bilər, amma əsas məsələ odur ki, heç olmasa, marionet bir fiqur olduğu özünə də aydın oldu. Həmçinin, ən əsası da odur ki, bütün müxalifət nümayəndələri C.Həsənlinin sonda bir oyuncaq olduğunu dərk etməsindən özləri üçün öyüd götürmək imkanı qazandılar.

***İnam HACIYEV***

# Müxalifət uğursuzluğa məhkumdur



Bu gün birmənalı mövqe ondan ibarətdir ki, xarici qüvvələrin əlaltısı rolunda çıxış edən AXCP, Müsavat kimi pozuculuğa və təxribatlara əsaslanmaqla siyasət aparan partiyalar xalqa və dövlətə düşmən kəsiliblər. Bu ünsürlər, öz məkrli planlarını və eləcə də, xarici qüvvələrin pozuculuğa yönələn sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətləri qurmaqdan çəkinməzlər. Bu da, dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Bununla da, bir daha əminliklə demək olar ki, xalqdan ayrı düşən dağıdıcı müxalifətin sağlam fəaliyyət yolu tutması və ya fəaliyyət göstərməsi mümkün deyil. Partiya sədrlərinin yeniləri ilə əvəzlənməsi də heç nəyi dəyişməyəcək. Çünki indiki partiya liderlərinin qərəzli təbliğatları ilə zəhərlənənlər sədr kimi sükan arxasında oturduqdan sonra xələflərindən fərqli siyasət aparacaqları inandırıcı deyil. Bu baxımdan, hazırkı müxalif partiyaları fəaliyyətlərini dayandıra və ya başqa partiyalara transfer olunana qədər bu cür zəif və gücsüz formada siyasi arenada adları çəkiləcək. Fikir verin, bu məkrli ünsürlər xalqın faciəsindən də öz məqsədləri üçün istifadə etməyə cəhd göstərirlər.

### "Əli Kərimli ucuz reklamla məşğul oldu"

AXCP sədri Əli Kərimli 20 yanvar günü hay-küy qaldırıb, şou yaratmaqla diqqəti özünə cəlb etməyə çalışdı. Düzdür, onun cəhdi uğursuzluğa düçar oldu. Ancaq bu, reallıqdır ki, xidmət edən addımların atılmasına uğursuz da olsa, cəhdlər göstərildi. BAXCP sədr müavini Niyaməddin Orduxanlı bizimlə söhbətində bildirdi ki, Əli Kərimli və başında olan 5-10 nəfər şəxs ziyarəti şou meydanına çevirməyə cəhd göstərdilər: "Hər kəs bunun şahididir ki, insanların çoxluğunu nəzərə alaraq, polis əməkdaşları ardıcıl, növbə ilə hər kəsi ziyarətə buraxır. Ortalama götürəndə, gözləmə zamanı 5-7 dəqiqə çəkir. Bu il isə, Əli Kərimli və başında olan 5-10 nəfər şəxs ziyarəti şou meydanına çevirdilər. Bu, bütün insanların gözü qarşısında baş vermiş hadisədir. İnandırım sizi ki, həmin dəqiqələrdə polislər kimin gözləməsinin belə fərqində deyildilər. Heç onlar bilmirdilər ki, orada gözləyənlər arasında Ə. Kərimli də var. Sadəcə, Ə. Kərimli ucuz reklamla məşğul oldu. Biabırcılıq idi. Özü də yaxşı başa düşürdü ki, insanları, eyni zamanda, hərəkət etdirmək mümkün deyildi. O zaman sıxlıq yarana bilər və ora gələn körpə, yaşlı insanlar və xanımlar cidd zədə ala bilərdi. Göründüyü kimi, bu adam, necə deyərlər, iliyinə qədər siyasiləşib. Hər bir vəziyyətdə özünün siyasi reklamı ilə məşğul olur. Bu da, kənardan çox iyrənc görsənir. 20 Yanvar günü bunu etmək ayıb idi. Ora gələn insanlar da şahid oldu ki, 5-6 dəqiqədən sonra Ə.Kərimli növbəsi çatanda, Şəhidlər Xiyabanına tərəf buraxıldı. Ə.Kərimlinin şou göstərdiyini müxalifətçilər də sosial şəbəkədə yazdılar və onu şiddətlə qınadılar".

### Xaricə işləyən müxalifət ifşa olunur

Bu, həm də faktdır ki, dağıdıcı müxalif qüvvələr öz məkrli fəaliyyətlərini xarici qüvvələrdən aldıqları sifarişlər əsasında qururlar. Əksər hallarda, dağıdıcı müxaliflər xarici təşkilatlara ölkəmiz haqqında dezinformasiya xarakterli informasiyalar çatdırır və bunun əsasında, qərəzli hesabatların yayılmasına nail olurlar. Məhz "Soros", "Freedom House" kimi ermənipərəst təşkilatların Azərbaycanda insan hüquqları, demokratiya, söz və mətbuat azadlığı və digər məsələlər barədə yaydıqları hesabatlar müxalifətin "donos" tipində onlara göndərdikləri məlumatlar əsasında hazırlanaraq yayılıb. Bu günlər "Freedom House"-nin Azərbaycan barədə yaydığı hesabatın AXCP, Müsavat yetkililərinin şər və böhtanları əsasında və dəqiqləşdirmə aparılmadan hzırlandığı üzə çıxmışdır. Politoloq Ramiz Aliyev bizmlə söhbətində bildirdi ki, "Freedom House" kimi beynəlxalq təşkilatların ölkəmiz haqqında sifariş əsasında vermiş olduqları bəyanatlar və hazırlamış olduqları hesabatlar ciddi qəbul edilə bilməz: "Ona görə ki, bu cür bəyanatlar və hesabatlar ciddi təşkilatlar tərəfindən hazırlanmayıb. "Freedom House" və digər bu kimi təşkilatların özləri, əslində, bir QHT-dirlər. Onların özlərinin nüfuzu və əhatə dairələri imkan verə bilməz ki, nə ölkəmiz üçün, nə də başqa bir müstəqil, demokratik ölkə üçün hesabat hazırlaya, ya da bəyanat verələr. Hər kəs bilir ki, bu kimi təşkilatlar qrantlar əsasında və lobbilərin ayırdığı maliyyə vəsaitləri ilə öz fəaliyyətlərini qururlar. Budəfəki maliyyəni də, yəqin ki, erməni lobbisi verib və sifarişi də belə olub ki, "Azərbaycan dövlətini ləkələyin". Ancaq yenə də, düşünüblər ki, bu cür təşkilatlar nə qədər "hesabat" hazırlayıb, öz maliyyə himayədarlarının gözünə soxsalar da, ölkəmizə ləkə yaxa bilməzlər. Azərbaycan ciddi beynəlxalq təşkilatlarla öz əməkdaşlığını qurmuş bir ölkədir. Bütün nüfuzlu beynəlxalq təşkilatlar ölkəmizdə iqtisadi inkişafın digər ölkələrdən necə üstün olmasını, insan hüquqlarının qorunmasını, vətəndaş cəmiyyətinin inkişafını və azad KİV-in olmasını bəyan edir. Buna görə də, fikrimcə, hər hansı bir əhəmiyyəti olmayan QHT-nin ölkəmiz haqqında hazırlamış olduğu mənasız hesabatın heç bir əhəmiyyəti yoxdur".

***İ.ƏLİYEV***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Fərd-cəmiyyət münasibətlərində insanın azadlıq hüququnun yeri və rolu

Ümumiyyətlə götürdükdə, fərd-cəmiyyət münasibətləri mürəkkəb, çoxsəviyyəli və çoxşaxəli xarakterə malikdir. Burada tərəflərin uyğunluğu, vəhdəti və ahəngdarlığı, qarşılıqlı nüfuz etmək kimi istiqamətlərlə yanaşı, həm də fərqlilik və müəyyən məsafəliliyin (ayrılığın) olduğu da qeyd edilməlidir. Sonuncu məqamı diqqət mərkəzində tutmaq çox vacibdir. Ona məhəl qoymadan, fərdi azadlığın ictimai münasibətlər sistemində yerini, rolunu, ölçülərini hərtərəfli və obyektiv araşdırmaq mümkün deyildir. Həm də nəzərdə tutulmalıdır ki, yuxarıda göstərilən istiqamətin rolunun şişirdilməsi də yolverilməzdir, çünki o, qeyri-ixtiyari surətdə insanın cəmiyyətdən üstün olduğu haqda səhv təsəvvürün yaranmasına gətirib çıxarır. Digər tərəfdən, fərdi özünəməxsusluğa məhəl qoymamaq, yəni insanın ümumi cəmiyyət içərisində əridilməsi də məqbul deyildir. Belə yanlış ənənə, uzun müddət ərzində, marksizm fəlsəfəsinin hökmranlığı dövründə qərarlaşmışdı. Odur ki, əsas məsələ ayrıca bir insan ilə sosial birlik və bütövlükdə, cəmiyyət arasında münasibətlərdə ümumi cəhətlər ilə yanaşı, müəyyən fərqliliyin və ayrılığın da olduğunu nəzərə almaqdadır. Qeyd olunan məqam bununla izah olunur ki, fərd, sözügedən münasibətlərdə spesifik subyekt kimi çıxış edir, daim öz subyektivliyinin davam və inkişaf etdirilməsinə cəhd göstərir. Bunu nəzərdə tutmaq çox vacibdir. Göstərilən cəhət təsadüfi olmayıb, "insanın subyektivliyi ilə, onun daim real mövcud olan və fəaliyyət göstərən sosial aləmdən yüksəyə qalxmağı arzu edən təbiəti ilə bağlıdır".

İnsanın subyektivliyi məzmun etibarilə çox genişdir. Buraya onun təbii imkanları və qabiliyyətləri, sosial keyfiyyətləri, daxili mənəvi aləmi (dünyagörüşü, dəyərlər orientasiyası, motivasiyası, emosional-psixoloji durumu və s.) daxildir. Deyilənlər göstərir ki, insanın subyektivliyi, onun mənəviliyi ilə sıx bağlı olsa da, təkcə ondan ibarət deyildir. Daha geniş məzmun daşıyan bu anlayış, həm də obyektiv və subyektiv keyfiyyətlərin özünəməxsus qovuşuğu kimi çıxış edir. İnsanın subyektiv aləmi daim onun həyat fəaliyyətinin möhkəm dayağı, tükənməz enerjisi və yaradıcılıq qabiliyyətinin daxili mənbəyi rolunu oynayır. Bu cəhət insanın fərdi azadlığının səviyyəsi və inkişafının, onun subyektivliyi ilə sıx bağlılığını şərtləndirir.

Q.Allahverdiyev yazır: "İnsan ilə cəmiyyət, ictimai münasibətlər arasındakı fərqlilik (ayrılıq və məsafəlilik), həm də onun ikili (parçalanma və totallıq) təbiətində təzahür edir. Birinci tərəf onda ifadə olunur ki, cəmiyyət inkişaf etdikcə, insan fəaliyyəti getdikcə daha artıq dərəcədə müxtəlif növlərə ayrılır və diferensiasiyaya uğrayır, ictimai həyat son dərəcə rəngarəng strukturların və əlaqələrin bütöv məcmusu kimi çıxış edir. Sosial gerçəkliyin daim mürəkkəbləşməsi və şaxələnməsi özünün müvafiq ifadəsini, həm də insan fərdiyyətində tapır. Başqa sözlə, sonuncu da çoxlu şaxələrə ayrılır və hər bir fərd özünün konkret fəaliyyət növünə sıx bağlılığı ilə səciyyələnir.

Qeyd olunan prosesin insanın özünə güclü təsiri aşağıdakı iki məqamda aşkara çıxır. Bir tərəfdən, insan daha çox ixtisaslaşır, həyat fəaliyyətinin müəyyən bir sahəsində mərkəzləşir. Nəticədə, onun birtərəfli inkişafı sürətlənir, universallığı və çoxtərəfliliyi isə, sözün müəyyən mənasında, kölgədə qalır. Digər məqam odur ki, bu prosesdə insanın artmaqda olan funksionallaşması özünü göstərir". Belə ki, insanın professionallığının dərinləşməsi və bu qəbildən olan birtərəfli inkişafı nəticəsində, onun həmin müfaviq fəaliyyət sahəsindən asılılığı da çoxalır. Zəmanəmizin görkəmli filosofu K.Yaspers bu meyili "fərdin funksiyalara parçalanması" kimi səciyyələndirirdi.

Sözügedən proses, o deməkdir ki, insan tədricən və çox vaxt da özü hiss etmədən, ictimai istehsalın və strukturların özünəməxsus funksiyasına və rolunu yerinə yetirən subyektə çevrilir. Bu isə, nəticə etibarilə ona gətirib çıxarır ki, insanın şəxsiyyət kimi inkişafını göstərən bəzi keyfiyyətlər arxa plana keçir, onların yerini konkret istehsal sahəsi və orada insanın rolu ilə bağlı tərəf tutur. Sözügedən meylin intensivləşməsi, buna gətirib çıxarır ki, "ictimai ölçülər baxımından yanaşdıqda fərd daha şəxsiyyət kimi çıxış etmir. Cəmiyyəti yalnız fərdin müəyyən tərəfi və keyfiyyətləri maraqlandırır, nəticədə, o, məcmu şəxsiyyət kimi deyil, müəyyən ixtisaslı fəhlə və qulluqçu kimi qəbul olunur".

İnsanın təbiətinə xas olan digər keyfiyyət-ümumilik və totallıq da, onun cəmiyyət ilə münasibətlərində müəyyən ayrılığı şərtləndirir. Totallıq insana məxsus atributiv keyfiyyət kimi, bunda ifadə olunur ki, istənilən fərd, hansı sahədə məşğul olmasından asılı olmayaraq, yalnız öz peşəsi və sənəti ilə bağlı qalmır, onun hüdudlarından kənara çıxır, ümumilikdə, insan kimi, bəşər övladı kimi çıxış edir. Totallıq, həm də insanın ümumi ictimai həyata qovuşuq olmasında, onda müxtəlif tərəflərin (zəka, mənəvi-əxlaqi dəyərlər, emosionallıq, yaşantılar və s) əhatə olunmasında özünü göstərir.

Qeyd edilməlidir ki, ictimai münasibətlər sistemi ilə müəyyən ayrılıqda olmaq, təkcə görkəmli şəxsiyyətlərə mənsub olan keyfiyyət deyildir. O, ümumilikdə, hər bir insana aid edilməlidir. Bu, cəmiyyətin hər bir üzvünün təkrarolunmaz və özünəməxsus cəhətlərin, sosial təcrübənin, yaradıcılıq və iradənin bütöv və müstəqil sistemi kimi çıxış etməsindən irəli gəlir. Qeyd olunan münasibətdə V.S.Solovyovun aşağıdakı fikrinə haqq qazandırmaq olar: "hər bir fərdi adam öz fəaliyyətini qeyri-məhdud şəkildə həyata keçirmək imkanlarına və yaxud sonsuz məzmuna malik olan xüsusi forma deməkdir".

Bütövlükdə götürdükdə, XX əsrin II yarısında və XXI əsrdə fərdi azadlığın ictimai münasibətlər sistemində yeri durmadan təkmilləşməkdədir. Bu, ən çox onda ifadə olunur ki, insanın sosial şaxələnmiş fərd kimi, özünün iqtisadi, peşə və mənəvi əsasları olan müstəqil subyekt kimi inkişafı baş verir. Onun fərdi keyfiyyətlərinin və qabiliyyətlərinin sosial əhəmiyyəti daha da artır. Qeyd olunan meyil böyük müsbət mənaya malikdir. Bu baxımdan, müasir dövrün tanınmış filosofu E.Fromun aşağıdakı fikri ədalətli səslənir: "İnsan özünü mücərrəd ümumi məxrəcə müncər etməyə cəhd göstərmək yolu ilə deyil, yalnız öz fərdiliyini reallaşdırmaqla, bütöv universal insan təcrübəsini əhatə edə bilər".

İctimai təsirin (onun hər iki növü də daxil olmaqla) ayrılıqda götürülmüş insanın sosial fəallığında və azadlığında çox mühüm rol oynadığını vurğulamaqla yanaşı, bu prosesin mexaniki və bəsit getdiyini təsəvvür etmək doğru deyildir. Çünki bu ümumi təsir, hər bir insanın öz daxili aləmi, həyat təcrübəsi və həyat tərzi prizmasından keçərək özünü göstərir. Sonuncu amillər fərdin aktivliyinin və azadlığının konkret təzahüretmə səviyyəsinə və özünəməxsusluqlarına ciddi düzəlişlər edir. Bu, onu sübut edir ki, hər bir insana ictimai münasibətlər sisteminin göstərdiyi təsir, onun öz daxili aktivliyinin yüksəlməsinin ümumi mənbəyi rolunu oynayır. Sözügedən aktivlik isə, bütün insanlarda eyni olmur, hər bir fərd tərəfindən təkrarolunmaz cəhətlərə malikdir, bir sözlə, spesifik çalarlı şəxsi məzmun kəsb edir. Doğrudur, insan təkbaşına fəaliyyət göstərmir, bu mənada, onun gördüyü bütün işlər ümumi kollektiv fəaliyyəti, vahid ictimai proqramın müəyyən tərkib hissəsini təşkil edir. Bununla belə, həmin ictimai proqram hər bir konkret fərddə onun öz proqramı formasında transformasiyaya uğramış halda həyata keçirilir. Sözügedən transformasiya məqamı öz mahiyyətinə görə daha çox, onun öz yaradıcılığını ifadə etdiyindən, burada yeniliklər, iradə azadlığını əks etdirən məqamlar da üstün yer tutur. Bu, onunla izah edilməlidir ki, "subyektiv insan amilinin spesifikliyi, sadəcə, onun mövcud olan imkanlardan seçim etməsində deyil, həm də öz fəaliyyəti üçün yeni obyektiv müqəddəm şərtlər yaratmasında, yeni həyat formaları, yeni məqsəd və vəzifələr müəyyən etməsindədir. Bütün bunlar subyektə, hadisələrin obyektiv gedişi ilə hazır vəziyyətdə təqdim olunmur, əksinə, onun obyekt ilə praktiki qarşılıqlı münasibətlərində yaradılır və özü-özlüyündə subyektin yaradıcı aktivliyinin nəticəsidir.

Fərdi azadlıq ilə ictimai münasibətlər sistemi və ümumi maraqlar arasındakı mürəkkəb münasibətlər əsas etibarilə aşağıdakı üç formada özünü göstərir. Birinci forma ictimai zərurət tərəfindən fərdi azadlıq qarşısında həddən artıq məhdudiyyətlərin qoyulması ilə səciyyələnir. Fərdi azadlığın belə sərt determinasiyası, onun reallaşmasında, yəni subyektin öz həyat fəaliyyətini arzu və istəklərinə uyğun qurması yolunda lüzumsuz sədlər çəkilməsinə gətirib çıxarır. Nəticədə, yalnız fərdi azadlıq deyil, həm də cəmiyyətdə ictimai münasibətlər zərər çəkir. Belə ki, onun sabitliyi pozulur, sosial sistemin ahəngdar inkişafı ləngiyir. Deyilənlərdən, heç də belə bir qənaət hasil olmamalıdır ki, cəmiyyət tərəfindən fərdin hər cür arzu və istəklərinə şərait yaradılmalıdır. Əks halda, fərdi mənafeləri ümumi maraqlarla uzlaşdırmaq qeyri-mümkün olardı.

İkinci istiqamət fərdi azadlığın hüdudlarının həddindən artıq şişirdilməsi və ictimai zərurətə məhəl qoyulmamasıdır. Bu hal da, ümumilikdə, arzuolunmazdır. Belə ki, sözügedən vəziyyətdə ictimai həyatda özbaşınalığın, xaosun, nizamsızlığın yaranması və baş alıb getməsi labüddür. Bütün bunlara yol verməmək üçün cəmiyyət daxilində fərdlərin azadlıqları səmərəli səviyyədə təmin olunmalıdır. Bu səviyyə fərdin maraqları, arzu və istəklərini nəzərə almaqla yanaşı, onların ictimai münasibətlərin sistemi ilə mövcud birgəyaşayış qaydaları ilə tarazlığını təmin etmək deməkdir. Onun əldə olunması və qorunubsaxlanılması, ümumilikdə, ictimai həyat ilə hər bir fərdin şəxsi fəaliyyəti arasında düzgün qarşılıqlı əlaqələrin yaradılması baxımından zəruridir. Əks halda, cəmiyyətdə sabitliyin mövcudluğu və onun normal axarı, digər tərəfdən isə, fərdin öz qabiliyyət və imkanlarını reallaşdırması və inkişaf etdirməsi qeyri-mümkündür. Üçüncü formanın başlıca məqsədi qeyd olunan məsələləri səmərəli tənzim etməyə yönəlir. O, fərdi azadlıq ilə ictimai azadlıq və mövcud sosial münasibətlər sistemi arasında normal qarşılıqlı əlaqə və təsirin həyata keçirilməsini nəzərdə tutur. Bu, bir tərəfdən, fərdin öz qabiliyyət və imkanlarını azad surətdə reallaşdırması üçün şərait yaradır, digər tərəfdən isə, onun maraqlarını digər insanlar və ümumilikdə, cəmiyyətin maraqları ilə əlaqələndirilməsi və uzlaşdırılmasını təmin edir. Deyilənlərdən aydın olur ki, bu, həm ayrıca bir insanın azadlığını inkişaf etdirməyin, həm də onun digər insanlarla və bütövlükdə, cəmiyyətlə ahəngdar münasibətlərini yaratmağın ən məqbul və optimal modelidir. Bununla əlaqədar, həmin modelin müəyyənləşdirilməsi və insanların azadlıqları düzgün seçməsinin meyarları məsələsi qarşıya çıxır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# səs

Son səhifə 25 yanvar




## Orta böyüklükdə asteroid Yer kürəsinin yaxınından keçəcək

ABŞ-ın Milli Kosmik və Aviasiya İdarəsinin (NASA) alimləri fevralın 4-də yerli vaxtla saat 13:30-da orta böyüklükdə asteroidin Yer kürəsinin yaxınından keçəcəyini bildiriblər. AZƏRTAC NASA-nın rəsmi saytına istinadla xəbər verir ki, diametri 0,5-1,2 kilometr arasında olan “2002 AJ129” asteroidinin planetimizə 4,2 milyon kilometr yaxınlaşması gözlənilir. Bu, Yer kürəsi ilə Ay arasındakı məsafədən 10 dəfədən çoxdur. Yer kürəsinə ən yaxın olduğu zaman saniyədə 34 kilometr sürətlə boşluqdan keçəcək asteroidin indiyədək kəşf edilən ən sürətli səma cismi olduğu bildirilib.

NASA alimləri “potensial təhlükəli asteroid” kateqoriyasına daxil edilmiş göy cisminin gələcək 100 il ərzində Yer kürəsi ilə toqquşma riskinin olmadığını açıqlayıblar. Xatırladaq ki, “2002 AJ129” asteroidi 2002-ci ildə kəşf edilib.

## Uşaqlarda oynaq ağrıları - diqqət yetirilməsi vacib olan əlamətlər...

“Valideynlərin revmatoloqa müraciət etməsinin səbəblərindən biri də uşaqların oynaqlarında olan ağrılardır. Bu ağrıların səbəbləri fizioloji proseslər, yeni uşağın böyüməsi ilə davam edən mübadilə pozğunluqları ilə yanaşı, infeksiyalarla da bağlı ola bilər. Eyni zamanda, səbəbi müəyyənləşdirilə bilinməyən ağrılar da var. Belə ki, oynaq ağrıları 100-dən çox müxtəlif xəstəliklərdə təsadüf edilir.”



Bu sözləri Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının pediatrı Sveta Rəfiyeva universitetin mətbuat xidmətinə bildirib. Həkim deyib: “Ağrılar bilavasitə, oynaq strukturunda-sinovel qişa, kapsula, sümüklər, bağlar və pereartikulyar toxumada yerləşən sinir uclarının qıcıqlanması nəticəsində meydana çıxır. Oynaq qığırdağı sinir və damara malik olmadığı üçün, onun izolya olunmuş zədələnməsi ağrı ilə müşayiət olunmur.

Ağrıların fizioloji proseslərlə bağlılığı əsasən 6-11 yaşlı uşaqlarda müşahidə edilir. Uşaqlar çox vaxt baldır və budda olan əzələ ağrılarından şikayət edirlər. Onların diz oynaqlarından olan şikayətləri isə əsasən gündüz fiziki fəallıqdan sonra artaraq, gecələr də davam edir. Bu səbəbdən uşaq gecə yuxusundan sonra, səhər xoş əhval-ruhiyyədə olmur və özünü pis hiss edir. Mübadilə pozğunluqları ilə bağlı ağrılar 6 yaşdan yuxarı uşaqlar üçün xarakterikdir. Bu ağrıların lokalizasiyanın olduğu yer əksər hallarda diz və aşıq-topuq oynaqları olur. Bu ağrılar tez-tez şokolad, kakao, paxlalı bitkilər yedikdən sonra güclənərək stress və psixi gərginliklə bağlı səbəblərdən meydana çıxır və gecələr daha da intensivləşir. Səhər oyandıqda isə uşaq özünü gümrah hiss edir.

Digər səbəb - infeksiya ilə bağlı oynaq ağrılarında oynaqların şişməsi, qızarması, hərəkət məhdudluğu da meydana çıxa bilər. Hər bir halda oynaq ağrıları zamanı dəqiq anamnezin, yəni xəstəliyin tarixçəsini dəqiqləşdirmək vacibdir. Bununla yanaşı qanın ümumi analizi, kəskin iltihab göstəriciləri (ASO, SRP) bəzən spesifik analizlər, oynağın rentgeni, kompüter tomoqrafiyası, lazım gəldikdə isə MRT müayinəsi aparılmalıdır”.

## Azərbaycan millisinin UEFA Millətlər Liqasında rəqibləri müəyyənləşib




Yanvarın 24-də UEFA-nın yeni təsis etdiyi Millətlər Liqasının püşkatma mərasimi başlayıb. AZƏRTAC xəbər verir ki, İsveçrənin Lozanna şəhərində keçirilən mərasimdə Azərbaycan milli komandasının da rəqibləri müəyyənləşib. “D” liqasında mübarizə aparacaq Azərbaycan milli komandası püşkün nəticələrinə görə III qrupda yer alıb. Yığma komandamızın rəqibləri Farer Adaları, Malta və Kosovo millilərdir. Bu liqada çıxış edəcək digər komandalardan Gürcüstan, Latviya, Qazaxıstan, Andorra birinci, Belarus, Lüksemburq, Moldova və San-Marino yığmaları ikinci qrupda yer alıblar. Makedoniya, Ermənistan, Lixtenşteyn və Cəbəllütariq seçmələri isə dördüncü qrupda mübarizə aparacaqlar. UEFA Millətlər Liqasında çıxış edəcək 55 milli komanda dörd divizionda yarışacaq. “A” və “B” liqalarının hər birinə 12, “C” liqasına 15, “D” liqasına isə 16 komanda daxil edilib. Qrup mərhələsinin görüşləri bu ilin sentyabr-noyabr aylarında oynanılacaq.



## Xavyer Maskerano “Barselona”dan getdi!

“Barselona” Xavyer Maskerano ilə yolları ayırıb. Bu barədə klubun rəsmi saytı xəbər yayıb. İspaniya mətbuatı argentinalı müdafiəçinin karyerasını Çində davam etdirəcəyini yazıb. Onun “Xebey Çayna Forçun” klubu ilə razılığa gəldiyi bildirilir. Qeyd edək ki, 33 yaşlı futbolçu 2010-cu ildən “Barselona”da çıxış edirdi.

## Ronaldo Türkiyədə otel açacaq



“Real Madrid”in ulduzu Kriştiano Ronaldonun şərik olduğu otellər şəbəkəsi 3 ölkədə yeni otellər açmaq barədə qərar qəbul edib. Yeni otellərin Türkiyə, İtaliya və Yunanıstanda açılması nəzərdə tutulub. Futbolçuluqdan əlavə CR7 markası ilə tekstil və aksesuar sektorunda milyonlarla dollar gəlir əldə edən Ronaldo 2015-ci ildən 70 milyon avro ödəyərək portuqaliyalılara məxsus otellər şəbəkəsinə şərik olub. “Pestana Group” şirkətinin Portuqaliya, Argentina, Hollandiya, ABŞ və Almaniyada otelləri var.

Ronaldonun şərik olduğu şirkət il ərzində İtaliya, Yunanıstan və Türkiyədə də yeni turizm obyektlərinin tikilməsini planlaşdırıb.




## Yunan-Roma güləşçilərimiz ilin ilk sınağına İranda çıxacaqlar

Yanvarın 25-26-da İranın Mehşəhr şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında ənənəvi “Təxti Kuboku” beynəlxalq turniri keçiriləcək. Turnir yunan-Roma güləşçilərinin reytinq xallarının hesablanacağı ilk yarışdır. AZƏRTAC xəbər verir ki, yunan-Roma güləşi üzrə yığmamızın üzvləri yarışda baş məşqçi Şaban Donat və məşqçi Nurəddin Rəcəbovun rəhbərliyi altında iştirak edəcəklər. Heyətdə Ziyad Zeynalov, İbrahim Nurullayev (hər ikisi 55 kq), Sakit Quliyev, Murad Bazarov (hər ikisi 60 kq), Taleh Məmmədov (63 kq), Elman Muxtarov (67 kq), Ülvi Qənizadə, Sənan Süleymanov (72 kq), Nəsir Həsənov (77 kq), Türmən Eyyubov və Orxan Nuriyev (hər ikisi 97 kq) yer alıblar. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Xəzər Allahverdiyev təmsil edəcək.

2018-ci ilin təqvim planında nəzərdə tutulan qitə və dünya çempionatları ilə yanaşı, hər bir güləş növündə seçilmiş 4 turnirin nəticəsinə əsasən reytinq xalları hesablanacaq. Reytinq yarışlarında iştirakçıların sayı və güləşçilərin qazandığı nəticələr üzrə xallar toplanaraq sıralamanı müəyyənləşdirəcək.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500